Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

30 APREL 2020-ci il

№ 68 (4199)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AZƏRBAYCAN KORONAVİRUSLA UĞURLU MÜBARİZƏNİ «SƏMƏRƏLİ KOMANDADAN» BAŞLADI - PREZİDENT DAHA BİR TƏCRÜBƏNİ DÜNYA İLƏ BÖLÜŞDÜ...

■ səh. 3 ■

Koronavirusla Azərbaycanın mübarizəsinin iki böyük məqsədi - Prezident dünyaya yeni resept təqdim etdi...

■ səh. 2 ■

İlin ilk rübündə iqtisadi artıma nail ola bilmiş yeganə ölkə - Prezidentin son videokonfransında dünyadan gələn səs...

■ səh. 6 ■

Qazaxıstandan azərbaycanlı deputat Ənvər Ağayevdən Prezident Əliyevə - "biz başqa ölkənin vətəndaşı olsaq da..."

■ səh. 3 ■

Ermənistan Qarabağ məsələsində geri çəkilməyə başlayır: Moskva İrəvanın isterikasını qulaqardına vurur, Paşinyan və komandasının yalanları işləmir...

■ səh. 9 ■

ABŞ Departamentindəki erməni lobbiçiləri təcavüzkar Ermənistanın silahlanmasını gözdən yayındırdı, Azərbaycanı isə silahlanma qaydalarını guya pozmaqda...

■ səh. 8 ■

Dünyanı postpandemiya dövrü üçün təhdid edən taxıl qıtlığı Azərbaycandan yan keçir... Yerli istehsal yetərli həddə...

■ səh. 12 ■

Neft qiymətlərində mühüm dəyişikliklər mərhələsi başladı - proqnozlar 40 dollar həndəvərində...

■ səh. 13 ■




■ səh. 4 ■

## Avropa Bankının Azərbaycanda Yeni İnkişaf Korporasiyası planı, ölkəmizə bu il 250 milyon dollar gələcək - Prezident Əliyevin yeni triumfu...



Koronavirus dövrünün iqtisadi cinayəti - dövlətin zərərdidə işçilərə maaş kompensasiyasını mənimsəyən sahibkarlar...

■ səh. 5 ■



Paşinyan öz xalqına son bir ayda verdiyi sözü də pozdu - işıq və qazı kəsdi, gülünc bəhanə...

■ səh. 8 ■

İrəvanda Mahatma Qandiyə heykəl qoymaq ermənilərin nəyinə lazımdır...

■ səh. 11 ■

■ səh. 6 ■

Azərbaycanda "korona" ilə mübarizə dövrünün klassik təyinatı - aztəminatlılara və sahibkarlara yardım edilməli dövr...



■ səh. 5 ■

Nəqliyyatda öz maraqlarını dövlət mənafelərindən üstün tutan şirkətlər - Avropa Bankı ilə müzakirədə fakt açıldı...



■ səh. 7 ■

Azərbaycanın virusla mübarizəsinə ÜST-nin ehtivalı qiyməti - milli, regional və qlobal müstəvilərdə görünən səylər...



■ səh. 10 ■

Türk dövlətlərinin səhiyyə nazirliklərinin yeni birgə qurumu - postkorona dövrünün inteqrasiyaları başlayır



■ səh. 10 ■

Koronavirus dövründə "icad olunan" daha bir cinayət forması - işlənmiş maskaları yenidən bazara qaytaran işbazlar(?)...



# Koronavirusla Azərbaycanın mübarizəsinin iki böyük məqsədi - Prezident dünyaya yeni resept təqdim etdi...

**Məlum olduğu kimi, aprelin 28-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın prezidenti Suma Çakrabarti arasında videokonfrans keçirilib. Görüş zamanı bir sıra məsələlərə toxunulub.**



Prezident İlham Əliyev S.Çakrabarti ilə videogörüşdə bildirib ki, məhdudlaşdırıcı tədbirlərin tətbiqi qərarı asan olmayıb: "Biz anlayırdıq ki, insanlar üçün narahatlıq yaranacaq, iqtisadi inkişafımıza böyük zərbə dəyəcək, halbuki, bu ilin göstəriciləri olduqca ümidverici idi. Lakin bizim iki variantımız var idi. Birinci variant insanların həyatını və sağlamlığını qorumaq, ikinci variant isə iqtisadiyyatın xilas edilməsi prioriteti idi. Bu səbəbdən ilk gündən bizim seçimimiz insanların həyatının qorunması oldu. Gördüyümüz bütün işlərin məqsədi budur və bu istiqamətdə səylərimizi tam səfərbər etmişik. Biz 120 mindən artıq test həyata keçirmişik və aparılan testlərin adambaşına düşən sayına görə aparıcı yerlərdəyik".

Qeyd olunduğu kimi, bizim iki vəzifəmiz var. Onlardan biri insanları qorumaq, digəri isə iqtisadiyyatı qorumaqdır. Maraqlıdır, Azərbaycan bu vəzifələri necə icra edir?

## *Elçin Mirzəbəyli: "Azərbaycan, ilk növbədə, vətəndaşların təhlükəsizliyini qoruyur"*

*"...karantin rejimində tətbiq edilən innovativ metodlara qonşu ölkələr də maraq göstərir"*

Siyasi ekspert Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, dövlətin başlıca vəzifələrindən biri ölkə əhalisinin rifahını, eyni zamanda, iqtisadiyyatı qorumaqdır: "Azərbaycanda koronavirus pandemiyasının yayılmasının qarşısını almaq məqsədilə görülən tədbirlər, bununla yanaş, vətəndaşların sosial rifah halının yüksəlməsi istiqamətində görülən işlər tənəzzülün baş verməməsi üçün atılan addımlardır. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan, ilk növbədə, vətəndaşların təhlükəsizliyini qoruyur.

Ölkəmizdə görülən tədbirlər dünyanın bir sıra ölkələrində nümunə kimi qəbul edilir. Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, eyni zamanda, karantin rejimində tətbiq edilən innovativ metodlara qonşu ölkələr də maraq göstərir".

***Günel CƏLİLOVA***

### Azərbaycanın dövlət sərhədində giriş-çıxışa məhdudiyyət müddəti uzadıldı

**Azərbaycan Respublikasının dövlət sərhədində giriş-çıxışa tətbiq olunan məhdudiyyət 31 may 2020-ci il tarixinədək uzadılır. Bu barədə baki-xeber.com-a Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.**

Qeyd edilib ki, hazırda dünya dövlətləri tərəfindən yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirləri davam edir. Həyata keçirilən tədbirlər çərçivəsində əksər dövlətlər öz sərhədlərində giriş-çıxışa müvəqqəti olaraq məhdudiyyətin tətbiqi barədə qərar verərək beynəlxalq uçuşları təxirə salıb. COVID-19 pandemiyası ilə bağlı dünyadakı vəziyyət təhlil edilmiş və virusun ölkə ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə, yükdaşımaları və çarter reysləri istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava yolu ilə giriş-çıxışa tətbiq olunan məhdudiyyət 31 may 2020-ci il tarixədək uzadılıb.

### Mətbuat Şurasının sədri Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının onlayn konfransına qatılacaq

**Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının mayın 3-də keçiriləcək onlayn toplantısına qatılacaq. 3 may - Ümumdünya Mətbuat Azadlığı Gününə həsr olunmuş toplantı əsasən koronavirus pandemiyası şəraitində medianın fəaliyyət istiqamətləri ilə bağlı olacaq.**



"Media: koronavirusdan əvvəl və sonra" mövzusundakı onlayn tədbirdə quruma üzv təşkilatların rəhbərləri təmsil etdikləri ölkələrdə medianın durumuna dair məruzələrlə çıxış edəcəklər. Həmçinin, pandemiyanın media fəaliyyətinə təsirləri müzakirə olunacaq. Mövcud xüsusda kütləvi informasiya vasitələrinin ümumən peşəkarlıq xüsusiyyətlərinə nəzər salınaraq, jurnalistlərin etik standartlara nə dərəcədə əməl etmələrinin konkret situasiyaların təhlili aparılacaq, problem və çatışmazlıqlar qruplaşdırılacaq. Avropadan, Asiyadan, Afrikadan, ümumilikdə, 20-dən çox ölkənin təmsilçisinin qatılacağı toplantının yekunu olaraq Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının media fəaliyyətinə dair tövsiyələrinin hazırlanması planlaşdırılır. Qeyd edək ki, Azərbaycan Mətbuat Şurasının sədri Ə.Amaşov assosiasiyanın sədrinin birinci müavinidir. O, bu posta qurumun 2019-cu ilin sentyabrında Bakıda keçirilmiş illik toplantısında seçilib.

Xatırladıq ki, Azərbaycan Mətbuat Şurası 2005-ci ildən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının üzvüdür. Habelə Naxçıvan Mətbuat Şurası da bu mötəbər təşkilatda təmsil olunur.

# Virusla mübarizədə Azərbaycan Prezidentinin nələr etdiyini dünya gördü - Mingəçevirdəki 20 saylı məktəbin tarix müəllimi Mənsur Həsənov...

**Azərbaycan dövlətinin pandemiya ilə mübarizədə ortaya qoyduğu örnəklər ölkənin təhsil ictimaiyyətinin də rəğbətinə səbəb olub.**



Mingəçevir şəhərindən tarix müəllimi Həsənov Mənsur Məcnun oğlu Prezidentə yazdığı məktubda qeyd edir ki, dünyanın çətin sınaq qarşısında olduğu bir dövrdə xalqımızı bu bəladan hifz etmək üçün Prezident İlham Əliyevin rəhbərliyilə görülən tədbirlər və ard-arda verdiyi mühüm fərman və sərəncamlar hər bir vətəndaşın ürəyincədir. "...Xalqımız dünyanı bürüyən ağır pandemiya dövründə "Biz birlikdə güclüyük!" çağırışınız ətrafında sıx birləşdi. Bu gün əminliklə deyə bilərəm ki, görülən təxirəsalınmaz tədbirlər sayəsində pandemiyaya qarşı mübarizə öz səmərəsini göstərməkdədir. Təbii ki, bu, hər bir Azərbaycan vətəndaşını sevindirir. Bu ağır dövrdə vətəndaşlarımızın rifahı üçün gördüyünüz tədbirlər bir daha sayənizdə dövlətimizin nə qədər qüdrətli bir ölkə olduğunu hər bir kəsə və təbii ki, bütün dünyaya göstərdi" - deyə tarix müəllimi qeyd edir.

M.Həsənov, həmçinin, müəllim kimi çalışdığı Mingəçevir şəhər 20 saylı tam orta məktəbin kollektivi adından bu ağır günlərdə öz dəstəyini xalqımızdan heç zaman əsirgəməyən Prezident İlham Əliyevə və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevaya dərin minnətdarlığını bildirir.

# Azərbaycanda daha 49 nəfərdə koronavirus aşkarlandı, 46 nəfər sağaldı, 1 nəfər vəfat etdi...

**Azərbaycan Respublikasında 49 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 46 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, xronik obstruktiv ağciyər xəstəliyi və ürəyin işemik xəstəliyi olan 1944-cü il təvəllüdlü vətəndaş vəfat edib.



Hazırkı dövrədək ölkəmizdə 1766 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1267 nəfər müalicə olunaraq sağalıb, 23 nəfər vəfat edib, 476 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 18 nəfərin vəziyyəti ağır, 26 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

**Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 137.379 test aparılıb.**

# Azərbaycan koronavirusla uğurlu mübarizəni "səmərəli komandadan" başladı - Prezident daha bir təcrübəni dünya ilə bölüşdü...

**Prezident İlham Əliyev aprelin 28-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin təşəbbüsü ilə keçirilən videokonfransda deyib ki, biz koronavirusla mübarizə sahəsində ilk gündən real vəziyyətə əsaslanan tədbirlər görməyə başladıq:**

"Vəziyyətin düzgün dəyərləndirilməsi və bu böhranla məşğul olunması üçün səmərəli komandanın yaradılması bizim üçün çox vacib idi. Azərbaycana bu virus qonşuluqdan gəldi və bunun qarşısını almaq üçün biz müvafiq addımlar atdıq və qonşu dövlətlərlə razılıq və birgə qərar əsasında sərhədlərimizi bağladıq". Dövlət başçısı bildirib: "Hesab edirəm ki, biz bu qərarı vaxtında və digər ölkələrin bənzər qərarlarından tez verdik və beləliklə zaman udmuş olduq. Biz görürük ki, bu virusla mübarizədə ən vacib məsələ vaxtdır, çünki heç bir ölkənin səhiyyə sistemi bu qədər böyük sayda yoluxmuş insanların müalicəsinə hazır deyil. Bu səbəbdən vaxtın qazanılması, səhiyyə sistemimizin hazırlanması, mütəxəssis və həkimlərimizin səfərbər edilməsi və düzgün idarəçiliyin qurulması əsas hədəflərimiz oldu. Daha sonra biz virusun ölkə ərazisində yayılmasının şahidi olduq və mart ayından etibarən məhdudlaşdırıcı tədbirlər həyata keçirməyə başladıq. Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə daimi təmasdayıq və bu təmaslar davam edir. Biz vəziyyətin dəyərləndirilməsi üçün ölkəyə mütəxəssislərdən ibarət heyətin göndərilməsi ilə bağlı Ümumdünya Səhiyyə Təşkilatına müraciət etdik və onlar bunu etdilər və daha sonra bəyanatla çıxış etdilər ki, Azərbaycan zəruri tədbirləri görür. Onlar da öz növbələrində müəyyən tövsiyələrini verdilər. Daha sonra Ümumdünya Səhiyyə Təşkilatı bəyanat yayaraq Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunə kimi göstərmişdir. Vaxtaşırı sərtləşdirdiyimiz məhdudlaşdırıcı tədbirlərin müsbət nəticəsi olmuşdur və artıq iki həftədir ki, bizdə müsbət dinamika var. Yəni sağalanların sayı yoluxanların sayından artıqdır. Ölüm faizinin nisbətən aşağı olması onu göstərir ki, işlər müsbət istiqamətdə aparılır. Dünəndən biz məhdudlaşdırıcı tədbirləri yumşaltmağa başlamışıq. İqtisadiyyatımıza təsirə gəldikdə, əlbəttə, təsir mənfi olacaqdır. Bizim ilin əvvəlində müsbət perspektivlərimiz var idi. Hələ də ilin ilk rübünə nəzərə salsaq, artım 1 faizdir, qeyri-neft sektorunda artım 3 faiz təşkil edir, qeyri-enerji sahəsində artım isə 23 faizdir".

Prezidentin bu çıxışında diqqət çəkən məqamlardan biri də pandemiya ilə mübarizədə əldə edilən qənaətbəxş nəticəyə vaxtında yaradılan səmərəli komandanın köməyi ilə nail olmaqla bağlıdır. Bu səmərəli komanda Azərbaycana virusa qarşı mübarizədə nə verə bildi? "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə rəhbərliyinin iki il əvvəl başlatdığı islahat paketi özünü bütün sahələrdə göstərməyə başlayıb:"Azərbaycanın idarəetmə sistemində ciddi izam-intizam mövcuddur. Biz bunu digər məsələlərlə də bağlı görmüşük. Pandemiya dönəmində biz daha nizam-intizamlı davrandıq. Dərhal Operativ Qərərgah yaradıldı. Bu problemlə yaxından məşğul olacaq komanda formalaşdı. Bunun əhəmiyyəti ondan ibarət idi ki, hər kəs həmin komandanın daxilində hansı işi görəcəyini bilirdi. Bu da iş əmsalını yüksəldirdi. Bunun üçün baza rolunu isə bizim dövlət qurumlarının zamanında modernləşməsi oldu. Bizim əldə etdiyimiz nəticələr göz qabağındadır. Başlıca prinsip gözlənilməz vəziyyətə dövlət qurumlarının hazır olmasından ibarət olub. Cənab Prezidentin özünün rəhbərliyi ilə həyata keçirilən prosesdən biz yaxşı nəticələrlə çıxmaq ərəfəsindəyik.

***Rasim Quliyev:** "Artıq sübut olunur ki, Azərbaycanda istənilən gözlənilməz situasiya ilə bağlı dövlətin güclü immuniteti formalaşıb"*



Təsadüfi deyil ki, bizim bu sahədə gördüyümüz işləri dünyanın ən nüfuzlu təşkilatları da təqdir edir. Pandemiya ilə bağlı formalaşan çevik komandanın iş əmsalı yüksək dəyərləndirilə bilər. Hətta dünyanın ən inkişaf etmiş ölkələri belə bu prosesdən böyük itki ilə çıxdılar. Artıq sübut olunur ki, Azərbaycanda istənilən gözlənilməz situasiya ilə bağlı dövlətin güclü immuniteti formalaşıb. Biz heç kimdən borc istəmədən, daxili imkanlarımız hesabına bu böyük bəla ilə mübarizəni apara bildiksə, deməli, ən başlıcası, işin təşkili düzgün olub. Çox da arxayınlaşmamalıyıq. Çünki pandemiya hələ tam bitməyib. Səbrlə dövlətin elan etdiyi proqrama uyğun şəkildə davranmalıyıq ki, virusin yenidən yayılma dalğası ilə üzləşməyək. Əminəm ki, ölkəmizin bu təcrübəsindən digər dövlətlər də yararlanacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Qazaxıstandan azərbaycanlı deputat Ənvər Ağayevdən Prezident Əliyevə - "biz başqa ölkənin vətəndaşı olsaq da..."

**Koronavirus pandemiyası ilə mübarizədə Azərbaycan dövləti tərəfindən gerçəkləşdirilən çoxistiqamətli və səmərəli tədbirlər Vətəndən kənarda yaşayan soydaşlarımız tərəfindən də təqdir edilir.**



Qazaxıstan Respublikasından Qərbi Qazaxıstan vilayəti yerli qanunverici orqanının deputatı Ənvər Ağayev Prezident İlham Əliyevə ünvanladığı müraciətdə bu məsələdən bəhs edilir: "...Biz - Qazaxıstanda yaşayan azərbaycanlılar yaşadığımız ölkə ilə yanaşı, doğma Vətənimizdə bu bəlanın yayılmasından narahatlıq keçirsək də, Azərbaycanda görülən tədbirləri, Sizin örnək fəaliyyətinizi, ölkəmizin hər bir vətəndaşına göstərdiyiniz diqqət və qayğını heyranlıqla izləyirik. Vaxtında atdığınız uğurlu addımlar, verdiyiniz müdrik qərarlar, xüsusilə də ölkə vətəndaşlarının maddi rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyiniz layihələr xaricdə yaşayan azərbaycanlıların diqqət mərkəzindədir. Belə bir qənaətə gəlir və bir daha şahidi oluruq ki, Sizin siyasətinizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan xalqının rifahı Sizin üçün hər şeydən üstündür".

Soydaşımız, həmçinin, yazır ki, Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışı xalqımızın həmrəyliyinə, birliyinə yeni, parlaq çalarlar gətirdi. O, eyni zamanda, qeyd edir ki, qlobal bəla ilə mübarizədə Azərbaycan xalqı məsuliyyət, yüksək nizam-intizam və ən başlıcası, milli həmrəylik nümayiş etdirdi. Xaricdə yaşayan azərbaycanlılar olaraq həm qürbətdəki həmyerlilərimiz, həm də Vətənimiz üçün gördüyünüz işlərdən qürur duyuruq. Başqa bir ölkənin vətəndaşı olsaq da, Qazaxıstandakı azərbaycanlılar, qürbət ölkədə mövqe tutmuş, müəyyən söz sahibi olan oğul və qızlarımız üçün Sizin çağırışınız bir siqnaldır. Biz tarixi məsuliyyətimizlə bu çağırış qarşısında hər cür fədakarlığa hazır olduğumuzu bildirməkdən şərəf duyuruq" - deyə məktubunda qeyd edən soydaşımız, həmçinin, Azərbaycan Prezidentinin təşəbbüsü ilə türkdilli xalqların liderlərinin videokonfransının keçirilməsinin də əhəmiyyətini vurğulayır.

**"Siz böyük türk oğlu kimi ümumbəşəri bəlaya qarşı birlikdə mücadilənin əhəmiyyətini bütün dünya siyasətçilərinə nümayiş etdirdiniz. Qlobal problemlərlə mübarizədə Azərbaycan yeni bir nümunə yaratdı və indi bütün dünya ölkəmizin nümunəsini öyrənməyə çalışır" - deyə soydaşımız bildirir.**

# Avropa Bankının Azərbaycanda Yeni İnkişaf Korporasiyası planı, ölkəmizə bu il 250 milyon dollar gələcək - Prezident Əliyevin yeni triumfu...

**Xəbər verildiyi kimi, aprelin 28-də Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidentinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bankın prezidenti Suma Çakrabarti arasında videokonfrans keçirilib. Suma Çakrabarti gələcək planları haqqında məlumat verərkən bildirib ki, ötən illərlə müqayisədə keçən il AYİB-in Azərbaycana sərmayə həcmi aşağı səviyyədə olub, çünki bank neft-qaz sahəsinə yatırım etməyib və diqqəti orta və kiçik sahibkarlıq sahəsinə yönəldib:**

"Bu il isə, düşünürəm ki, yenidən Azərbaycana böyük sərmayə yatıracağıq və bu, böhrana cavab tədbirləri və iqtisadiyyatın canlandırılması baxımından düzgün olardı. Biz münbit şərait olduqda bu il Azərbaycana 250 milyon dollardan artıq sərmayə yatırmağı planlaşdırırıq. Bu sərmayənin qoyulması üçün bizə suveren və subsuveren zəmanət tələb olunacaq və həmkarlarımdan bu barədə ətraflı danışmağı xahiş edəcəyəm. Bu layihələr, xüsusilə dövlət sektorunu əhatə edir və buraya enerji, infrastruktur və İKT sahələri daxildir. Buraya bəzi dövlət müəssisələrinin kommersiyalaşması da daxildir. Biz Sizinlə 150 milyon dollarlıq yaşıl zərfi müzakirə etmişik və bu mövzunu yenidən gündəmə gətirmək istərdik". Avropa Bankının rəhbəri bildirib ki, onların yekun hədəfi dövlət müəssisələri və dövlət sektorunu əhatə edir: "Fikrimcə, biz növbəti həftə və ay ərzində dövlət müəssisələrinin orta perspektivdə kommersiyalaşdırılmasına, özəlləşdirilməsinə keçmək istəyirik. Bu, dövlət investisiya holdinqi vasitəsilə edilə bilər. Biz dövlət-özəl tərəfdaşlığı düsturu üzərində hökumətlə qanunvericilik sahəsində artıq işləyirik. Biz dövlət müəssisələrinin kommersiyalaşdırılması və özəlləşdirilməsinə keçidə həqiqətən kömək etmək istərdik. Biz, həmçinin, Azərbaycanın yeni İnkişaf Korporasiyasının yaradılması istiqamətində çalışırıq. Bir sözlə, qeyd etmək istəyirəm ki, Avropa Yenidənqurma və İnkişaf Bankı olaraq, biz, - bilmirəm Azərbaycan dilində də bu kəlam varmı?, - "İşləri məcrasına salmaq" istəyirik. Əlimizdən gələni edirik ki, Azərbaycanda və digər ölkələrdə böhrandan sonra bərpa baş versin və bu mümkün qədər tez yaşansın. Fikrimcə, Azərbaycana gəldikdə, vəziyyət daha yaxşıdır, çünki birinci rübdə artım müşahidə olunub. Lakin biz yalnız bununla arxayınlaşmamalıyıq. Biz hökumətin səylərini və özəl sektorla işi çox fəallaşdırmalıyıq ki, Azərbaycanda bu baş versin. Bunu da edəcəyik. Mənim bütün həmkarlarımı ekranda görürsünüz. Bütün yüksək rəhbərlik Sizə dəstək vermək üçün buradadır".

Göründüyü kimi, belə çətin dönəmdə Avropa Bankının rəhbəri Azərbaycana yeni layihə çərçivəsində 250 milyon dollar pul ayırmağa razı olduqlarını bildirib. Azərbaycanı onlar üçün cəlbedici edən nədir? Beynəlxalq qiymətləndirmə üzrə ekspert, iqtisadçı Asif İbrahimov "Bakı Xəbər"ə bildirdi ki, dünyanı bürüyən indiki çətin iqtisadi vəziyyətdə belə addımların atılması doğrudan da maraqlı mülahizələrin meydana çıxmasına yol açır:"Bilirsiniz ki, bir çox maliyyə qurumları onlara kredit almaqla bağlı müraciət edən ölkələrə yox cavabını verib. Azərbaycanla bağlı qəbul edilən bu qərarın obyektiv səbəbləri var. Azərbaycan cari ilin ilk rübündə sürətli iqfisadi artım tempinə görə lider ölkələrdəndir. Bu, münbit investisiya şəraitinin olmasından xəbər verir. Bu səbəbdən də, AYIB belə əlverişli şəraiti dəyərləndirmək niyyətindədir. Azərbaycan son illərdə neft sektorundan asılılığı azaldan, qeyri-neft sektorunun inkişafını şərtləndirən iqtisadi siyasət həyata keçirir. 2018-2019-cu illərdə Dünya Bankının biznes reytinqində biz 25 pillə irəlilədik. Bu tempə görə biz sürətlə inkişaf edən ölkələr sırasına aid edildik. Bu sahədə müxtəlif kriteriyalar var. Həm inzibati, həm də qanunvericilik sahəsində aparılan islahatlar da önəmli rola malikdir. Qeyri-neft sektoruna verdiyimiz önəm bizim gələcəyimizin yaxşı olacağını həmin qurumlar üçün şərtləndirən önəmli məqamdır. Avropa Bankı bütün bunları görməyə bilməzdi. Son dönəmdə biz ÜST-ün hesabatında da önə çıxdıq. Koronavirusla aparılan mübarizə həm də yaxşı iqtisadi göstəricilər tələb edir. Bununla bağlı hökumətin elan etdiyi antiböhran proqramları göstərir ki, bizim göstəricilərimiz çox yaxşıdır. Avropa İnkişaf Bankının seçimi çox doğrudur. Onlarda investisiya əsasən qeyri-neft sektoruna yönəldilir. Yatırımlar xüsusilə telekommunikasiya, kənd təsərrüfatı sahəsinə daha çox yönəldiləcək. Güman edirəm ki, bank sektoruna da yatırımlar olacaq. Bu addımlar Azərbaycanın iqtisadi reytinqinin yüksək olmasından xəbər verir".

***Asif İbrahimov:*** *"Bu addımlar Azərbaycanın iqtisadi reytinqinin yüksək olmasından xəbər verir"*




***Məhəmmədəli QƏRİBLİ***

# Əmircan kənd sakinləri də Prezidentə yazmağı üstün tutdular - Ancaq Qaxın Əmircan kəndi...

**Pandemiya dövründə əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına əsasən həyata keçirilən tədbirlər, xüsusən də sosial işçi layihəsi müxtəlif bölgələrdə yaşayan vətəndaşların müsbət reaksiyasına səbəb olub.**



Qax rayonunun Əmircan kəndindən Seyidəliyev Əli Məmmədrəsul oğlu "Dünyanı bürüyən koronavirus pandemiyası ilə mübarizə sahəsində ölkəmizdə görülən işlər təqdirəlayiqdir. Virusun ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması ilə bağlı tədbirlər üçün böyük məbləğdə vəsaitin ayrılması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi bu məsələyə necə ciddi yanaşıldığını göstərir. Bu müddət ərzində sosial işçi layihəsinin tətbiq edilməsi və mənim kimi minlərlə vətəndaşın işlə təmin olunması bizə göstərdiyiniz qayğının və diqqətin təcəssümüdür" - deyə Prezidentə yazdığı məktubda bildirir.

O, həmçinin, qeyd edir ki, böyük bir bəla olan koronavirusun ölkəmizdə kütləvi yayılmasının qarşısını almaq məqsədilə görülən işlərə görə də ölkə başçısına təşəkkürünü bildirir: "Siz xalqımıza dəstək olduğunuz kimi, xalqımız da hər zaman Sizə dəstəkdir. Siz dediyiniz kimi, "Biz birlikdə güclüyük!".

## Hacıqabuldan I Qarabağ müharibəsi veteranının oğlu Prezidentin "sosial paketləri" barədə nə yazdı...

**Bütün dünyanın əziyyət çəkdiyi pandemiyanın ölkəmizdə təsirinin azaldılması, xalqımızın bu bəladan az itki ilə çıxması üçün Prezident İlham Əliyevin rəhbərliyilə həyata keçirilən tədbirləri müharibə veteranları ailələri də yaxından izləyir və dəstəkləyirlər.**



Hacıqabul rayonundan Əhmədli Azər Nəhməd oğlu Prezidentə məktubunda qeyd edir ki, bütün dünyanı bürüyən pandemiya ilə Azərbaycan dövlətinin apardığı mübarizə bir örnəkdir. O, eyni zamanda, dövlətin həyata keçirdiyi sosial paketləri də müsbət qiymətləndirir. "...Mən Birinci Qarabağ müharibəsi veteranının oğlu olaraq hər bir vətəndaşın probleminə həssas yanaşdığınıza, göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm.

**Mən də dövlətimizin qayğısı ilə əhatə olunan vətəndaşlar sırasındayam və işsiz olduğum üçün 190 manat məbləğində birdəfəlik ödəmə aldım. Buna görə Sizə minnətdaram. Allah Sizi qorusun" - deyə A.Əhmədli Prezidentə yazır.**

# Koronavirus dövrünün iqtisadi cinayəti - dövlətin zərərdidə işçilərə maaş kompensasiyasını mənimsəyən sahibkarlar...

**Koronavirus (COVID-19) pandemiyasının sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə Nazirlər Kabinetinin qəbul etdiyi Tədbirlər Planına uyğun olaraq, İqtisadiyyat Nazirliyi koronavirus pandemiyasından zərər çəkmiş sahibkarlara və onların muzdlu işçilərinə maliyyə dəstəyi proqramına start verib.**

*"Təəssüf ki, bir çoxu iş yerini itirmək qorxusu üzündən susur və edilən haqsızlıqlara dözməli olur"*

Ən son məlumata görə, İqtisadiyyat Nazirliyinə muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi üçün koronavirus (COVID-19) pandemiyasından zərər çəkən 22 976 vergi ödəyicisi və maliyyə dəstəyi almaq üçün 73 760 fərdi (mikro) sahibkar, cəmi 96 736 vergi ödəyicisi müraciət edib. Muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi çərçivəsində 178 587 işçini əhatə edən 19 061 sahibkarın müraciəti araşdırılaraq təsdiqlənib və ayrılacaq maliyyə vəsaitinin bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim edilib.

Digər vergi ödəyiciləri üzrə araşdırmalar davam edir. İndiyədək təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 80,72 milyon manat, o cümlədən, 1-ci mərhələ üzrə ödənilməsi nəzərdə tutulan vəsaitin həcmi 40,36 mln. manat təşkil edir. Aprelin 27-nə Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən 17 568 vergi ödəyicisinə 168 778 nəfər muzdlu işçinin əməkhaqqı üzrə 38,46 milyon manat vəsaitin köçürülməsi təmin edilib.

Görünən odur ki, dövlət koronavirusla əlaqədar sahibkarlara maliyyə vəsaiti ayırıb. Yəni işçilərin məvacibinin yarısını dövlət ödəyir. Ancaq bu arada belə məlumatlar var ki, bəzi sahibkarlar bu vəsaiti işçilərdən əsirgəyirlər. Müxtəlif vasitələrlə bu vəsaiti öz şəxsi maraqları üçün mənimsəyirlər. Nəzərdə tutulduğu həcmdə işçilərə ödəniş edilmir. İşçilərə bu vəsait avans əvəzi verilir və s. Belə halların qarşısını necə almaq olar, bunun üçün hansı işlər görülməlidir?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə,

***Rəsul Cahangirli:** "İndiki həssas dövrdə belə hallar baş verirsə, buna yol verən sahibkarlar cəzalandırılmalıdırlar"*




belə halların baş verməsi yolverilməzdir: "İndiki həssas dövrdə belə hallar baş verirsə, buna yol verən sahibkarlar cəzalandırılmalıdırlar. Məsələ ondadır ki, bəzi sahibkarlar işçilərin məlumatsızlığından istifadə edərək onlar üçün ayrılan vəsaiti təyinatı üzrə xərcləmirlər. Bu da birbaşa olaraq onların əmək və sosial hüquqlarının pozulması deməkdir. Hesab edirəm ki, belə hallar varsa, ciddi şəkildə araşdırılmalıdır. Bunda da gərək belə özbaşınalıqlarla üzləşən işçilər fəallıq göstərsinlər. Bununla bağlı müvafiq qurumlara müraciət etsinlər. Təəssüf ki, bir çoxu iş yerini itirmək qorxusu üzündən susur və edilən haqsızlıqlara dözməli olur. Başqa bir tərəfdən, sözügedən məsələyə bir sıra qurumlar ciddi nəzarət etməlidirlər. Elə bir mexanizm hazırlanmalıdır ki, prosesə effektiv nəzarət funksiyasını təmin edə bilsin. O üzdən, mütəxəssislər bunun üzərində işləməlidirlər".

**Vidadi ORDAHALLI**

# Nəqliyyatda öz maraqlarını dövlət mənafelərindən üstün tutan şirkətlər - Avropa Bankı ilə müzakirədə fakt açıldı...

**"Hətta indi ən perspektivli sektorlardan biri olan nəqliyyat sektorunda biz görürük ki, şirkətlərin korporativ maraqları dövlət maraqlarını üstələyir". Bunu Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin təşəbbüsü ilə keçirilən videokonfransda deyib.**

*"Nəqliyyat sektoru elə sahədir ki, ora qısa müddətdə yatırım edərək maksimum gəlir əldə etmək düzgün yanaşma deyil"*

Prezident İlham Əliyev bildirib ki, hazırda İqtisadiyyat naziri dövlət müəssisələri ilə bağlı məsələ üzərində çalışır: "Artıq qeyd edildiyi kimi, kommersiyalaşdırma, qismən özəlləşdirmə - biz, ola bilsin, bunu sizinlə (yəni AYİB rəhbərliyilə) müzakirə etməliyik ki, ilkin addımlar hansılar olacaq. Biz, əslində, buna hazırıq. Korporativ idarəçilik məsələsi də var. Hazırda biz, bildiyiniz kimi, daha çox əlaqələndirmə məqsədilə ana təşkilat ideyasını müzakirə edirik. Çünki problemlərimizdən biri dövlət şirkətləri arasında əlaqələndirmənin çatışmamasıdır. Hətta indi ən perspektivli sektorlardan biri olan nəqliyyat sektorunda biz görürük ki, şirkətlərin korporativ maraqları dövlət maraqlarını üstələyir. Bu məqsədlə əlavə işçi qrupu yaradılacaq".

Bütün bu deyilənlərin fonunda, nəqliyyat sektorunda şirkətlərin korporativ maraqları dövlət maraqlarından üstün tutması nə deməkdir və bu nə kimi ziyan vurur?

Sözügedən məsələyə aydınlıq gətirən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənov bununla bağlı bir sıra məqamlara toxundu: "Böyük ehtimalla, burada söhbət dövlət səviyyəsində həyata keçirilən proqramlara uyğun olmayan müəyyən şirkətlərin fəaliyyətindən gedir. Həmin şirkətlərin ancaq öz maraqları olur. Nəqliyyat sektorunun inkişafı ilə bağlı dövlətin strategiyası var. Bunun da ayrı-ayrı komponentləri mövcuddur. Faktiki olaraq, dövlət həmin strategiyanın həyata keçirilməsində maraqlıdır. Hər bir mərhələdə, hər bir komponent üzrə müəyyən olunmuş hədəflər var. Ola bilsin ki, nəqliyyat sektorunda ayrı-ayrı şirkətlərin müəyyən maraqları var. Hansı ki, bu, ümumi stra-

***Azər Allahverənov:** "Müəyyən şirkətlər minimum sərmayə yatırmaq və qısa müddətdə maksimum gəlir əldə etmək məqsədi güdürlər"*



tegiyanın hədəfləri ilə üst-üstə düşmür. Çünki dövlət daha uzunmüddətli strategiya müəyyən edir. Ancaq ayrı-ayrı şirkətlərə, kompaniyalara baxdıqda görürük ki, onların hədəfləri başqadır. Müəyyən şirkətlər minimum sərmayə yatırmaq və qısa müddətdə maksimum gəlir əldə etmək məqsədi güdürlər.

Bu baxımdan, şirkətlərin müəyyən etdiyi siyasət dövlətin strategiyasına adekvat deyil. Bu da, nəticə etibarilə, korporativ maraqların dövlət maraqlarını üstələməsinə gətirib çıxarır. Nətəcədə dövlət bundan böyük ziyan çəkir. Ona görə də bu kimi məsələlərə diqqət etmək lazımdır. Təəssüflər olsun ki, şirkətlər daha çox öz merkantel maraqlarını güdürlər. Qısa müddət ərzində maksimum gəlir əldə etmək prinsipilə işə yanaşırlar. Ancaq nəqliyyat sektoru elə sahədir ki, ora qısa müddətdə yatırım edərək maksimum gəlir əldə etmək düzgün yanaşma deyil. Beynəlxalq təcrübəyə əsasən, nəqliyyat sektorunun inkişaf etdirilməsi daha uzunmüddətli strategiyaya əsaslanır".

**Vidadi ORDAHALLI**

# Azərbaycanda "korona" ilə mübarizə dövrünün klassik təyinatı - aztəminatlılara və sahibkarlara yardım edilməli dövr...

**"Bizim üçün bu dövr xərclərimizi artırmalı və yoxsul vətəndaşlarımıza və sahibkarlara yardım etməli olduğumuz dövrdür". Bu fikirləri Prezident İlham Əliyev koronavirusun iqtisadiyyata mənfi təsirləri barədə Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə keçirilmiş videokonfrans zamanı səsləndirib.**

*"Məqsəd həm də ölkə iqtisadiyyatının dayanıqlığını və sistemliliyini saxlamaqdır"*

***Aydın Hüseynov:** "Bu bir daha onu göstərir ki, ölkə başçısının siyasətinin əsasında Azərbaycan vətəndaşı dayanır"*

Dövlət başçısı bildirib ki, koronavirus nəticəsində mənfi təsirə məruz qalmış özəl sektorun müvafiq sahələrinə ciddi dəstək paketi təqdim edilib. Xidmət və digər sahələrdə çalışan 600 min vətəndaşın və mikrosahibkarlıq subyektlərinin əməkhaqlarının böyük hissəsi dövlət tərəfindən ödənilib. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa minimal meyara uyğun olaraq ödənişlər edilib: "Təbii ki, bu bizim üçün böyük xərcdir. Vergi güzəştləri də nəzərə alınsa, bu gün bu rəqəm 3,5 milyard manat və ya 2 milyard dollardan çoxdur. Bu bizim büdcəmiz üçün böyük yükdür, çünki neftin qiymətinin kəskin azalması bizim valyuta ehtiyatlarımıza mənfi təsir göstərəcəkdir. Ancaq bizim üçün bu dövr xərclərimizi artırmalı və yoxsul vətəndaşlarımıza və sahibkarlara yardım etməli olduğumuz dövrdür. Eyni zamanda, bu il biz ödənişli ictimai iş yerlərinin sayını da 2 dəfə artırmışıq. Burada minimal əməkhaqqı verilir və adətən, bu, dövlət sektoruna aid olan iş yerləridir. Bu il belə iş yerlərinin sayı 90 min olacaqdır. Biz sosial yardım alan vətəndaşların da sayını artırmışıq. Hər bir belə ailəyə ayda 222 manat ödənilir və onların sayı 80 minə çatmışdır. Bununla yanaşı, 12 min insan üçün, - burada da 70 faiz artım var, - özünüməşğulluq imkanları yaradılıb".

Göründüyü kimi, Azərbaycan dövləti üçün indiki dövrdə vətəndaşların qayğısına qalmaq hər şeydən önəmlidir. Xüsusən də aztəminatlı insanlara və sahibkarlara yardım etmək prioritetdir. O baxımdan, sözügedən sosial siyasəti ekspertlər necə dəyərləndirirlər?



Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, bütün bunlar Prezident İlham Əliyevin ölkə vətəndaşlarının sosial müdafiəsinə necə böyük önəm verməsinin göstəricisidir: "Məlum proseslər başlanandan bəri cənab Prezident İlham Əliyev ölkə vətəndaşlarının sağlamlığını ön plana çəkdi. Bu bir daha onu göstərir ki, ölkə başçısının siyasətinin əsasında Azərbaycan vətəndaşı dayanır.

Onun sağlamlığı, sosial rifahının yüksəldilməsi dayanır. Bununla belə, biz son vaxtlar görürük ki, Prezident ölkə iqtisadiyyatının bütün potensialından istifadə edərək xüsusən həssas təbəqənin problemlərinin həlli istiqamətində çalışır. Onların sosial qayğı ilə əhatə olunmasına yardım göstərir. Bütün bunlarla yanaşı, sahibkarlığa diqqət və qayğı, onların öz fəaliyyətlərini davam etdirməsi istiqamətində işlər görülür. Məqsəd həm də ölkə iqtisadiyyatının dayanıqlığını və sistemliliyini saxlamaqdır. Ümumilikdə, ölkə başçısı məlum problemlərin həlli ilə bağlı bütün vasitələrdən istifadə edir. Bütün bunlarla bağlı atılan addımlar mühüm əhəmiyyət kəsb edir".

***Vidadi ORDAHALLI***

# İlin ilk rübündə iqtisadi artıma nail ola bilmiş yeganə ölkə - Prezidentin son videokonfransında dünyadan gələn səs...

**Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın prezidenti Suma Çakrabarti arasında videokonfrans keçirilib.**

*"...ölkə iqtisadiyyatı yenə də inkişaf mərhələsindədir"*

***Pərviz Heydərov:** "Bu ilin ilk rübündə qeydə alınan iqtisadi artımın davamını ikinci rübdə də müşahidə edəcəyik"*

Suma Çakrabarti Prezidentlə görüşündə qeyd edib ki, sizin ölkə dünyada ilin ilk rübündə iqtisadi artıma nail olmuş azsaylı ölkələrdəndir, bəlkə də yeganə ölkəsiniz.

Qeyd edək ki, Azərbaycanda iqtisadi artımın inkişaf etməsini beynəlxalq təşkilatlar da dəfələrlə öz hesabatlarında qeyd ediblər.

İlin ilk rübündə iqtisadi artıma nail olmuş Azərbaycanın dünyada yeganə ölkə olması barədə fikrə münasibət bildirən iqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, 2017-ci ildən etibarən Azərbaycanda iqtisadi artım reallaşmağa başlayıb: "2017-ci ildən etibarən ölkə iqtisadiyyatında stabillik yaşandı. 2018-ci ildən isə iqtisadi artımın bərpa olunması müşahidə olunmağa başladı. Ötən il isə Azərbaycan iqtisadi artıma yüksək səviyyədə nail oldu. Bununla bağlı bir sıra sahələr üzrə də nailiyyətlər əldə edilib.

**İqtisadi inkişaf prosesi bu ilin birinci rübündə də qeydə alınıb. Sadəcə olaraq, cari ilin mart ayında yaşanan məlum koronavirus pandemiyasına görə bəzi sahələrdə müvəqqəti olaraq fasilə verilib. Ancaq buna baxmayaraq, ölkə iqtisadiyyatı yenə də inkişaf mərhələsindədir".**



İqtisadçı onu da əlavə etdi ki, bu ilin ilk rübündə qeydə alınan iqtisadi artımın davamını ikinci rübdə də müşahidə edəcəyik. Onun sözlərinə görə, yalnız Azərbaycan hökuməti deyil, bütün beynəlxalq maliyyə qurumları 2020-ci ildə Azərbaycanda iqtisadi artım tempinin davam edəcəyini, təxminən 3 faizlik iqtisadi artımın qeydə alınacağını proqnozlaşdırırlar: "2020-ci il iqtisadiyyatı Azərbaycan üçün bir sıra istiqamətdən yadda qalacaq.

2020-ci ildə sosial istiqamətlərə ayrılan vəsaitin həcmində də artımları müşahidə edəcəyik".

***Günel CƏLİLOVA***

# Azərbaycanın virusla mübarizəsinə ÜST-nin ehtivalı qiyməti - milli, regional və qlobal müstəvilərdə görünən səylər...

**Azərbaycan dövlətinin pandemiyaya qarşı mübarizədə həm milli, həm regional, həm də beynəlxalq səviyyədə gördüyü işlər beynəlxalq qurumlar tərəfindən təqdir edilir. Ölkəmizin nümayış etdirdiyi ümumbəşəri həmrəylik nümunələri artıq bütün dünya üçün nümunəyə çevrilib.**

*”...çox nümunəvi addımlar atmaqla özünü beynəlxalq aləmdə bir daha təsdiqlədi”*

***Vüqar Rəhimzadə:** ”Azərbaycan doğrudan da koronavirusla mübarizədə həm beynəlxalq, həm regional, həm də milli müstəvidə kifayət qədər böyük iş görüb”*

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus keçirdiyi mətbuat konfransında Azərbaycanın koronavirus pandemiyasına qarşı həm qlobal, həm də regional mübarizəyə töhfəsindən danışıb. Baş direktor bu yaxınlarda Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən videokonfrans formatında toplantıda koronavirusa qarşı mübarizə barədə müzakirələr aparıldığını, özünün də həmin toplantıda iştirak etdiyini bildirib.

Tedros Adhanom Qebreyesus bu kimi addımları vacib hesab etdiyini vurğulayıb. ÜST-nin Baş direktoru Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizəyə verdiyi qlobal töhfəni yüksək qiymətləndirib. O deyib ki, Azərbaycan qlobal səviyyədə bu mübarizəyə 5 milyon ABŞ dolları vəsait ayırıb: "Mən Azərbaycan Prezidentinin milli, regional və qlobal səviyyədə bu mübarizədə güclü səylərini görürəm. İmkandan istifadə edərək cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm ki, bütün bu üç səviyyədə səyləri birləşdirir, dəstək verir".

"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan dövləti qlobal pandemiyaya qarşı həyata keçirilən mübarizə tədbirlərində ən aktiv iştirak edən dövlət kimi dünyada tanınır. "Bildiyimiz kimi, COVID-19 pandemiyası dünyada qlobal problem yaradıb. Bu gün dünyanın bütün ölkələrində bu virus yayılıb. Hesab edirəm ki, koronavirusla bağlı Azərbaycan dövləti məqamında kifayət qədər tədbir həyata keçirib, vaxtında qərarlar verib. Mən burada xüsusilə cənab Prezidentin vaxtında atdığı addımları, imzaladığı sərəncam və fərmanları qeyd etmək istəyirəm. Koronavirusla Mübarizəyə Dəstək Fondu, ölkəmizdə xüsusi karantin rejiminin tətbiq olunması, sosial izolyasiyanın həyata keçirilməsi, Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması və sair nəticəsində bu qlobal bəladan məqamında yaxa qurtara bildik, kütləvi insan itkisinə məruz qalmadıq. Bu bəladan çox az itkilərlə çıxmağımız üçün Azərbaycan hökuməti vaxtında lazımi qərarları verdi. Ümumdünya Səhiyyə




Təşkilatının dövlətimizin gördüyü işlərlə bağlı cənab Prezidentə təşəkkür etməsi təqdirəlayiqdir. Çünki Azərbaycan doğrudan da koronavirusla mübarizədə həm beynəlxalq, həm regional, həm də milli müstəvidə kifayət qədər böyük iş görüb.

Təbii ki, ÜST-nin bütün dünyada koronavirus pandemiyasının qarşısını almaqla, onu məhdudlaşdırmaqla bağlı tövsiyələrini Azərbaycan yüksək dəyərləndirdi və bu qurumun verdiyi tövsiyələri əsas götürərək, birmənalı olaraq, mübarizə tədbirlərini bu istiqamətdə qurdu. Bu baxımdan, həm Azərbaycanın qlobal pandemiya ilə bağlı mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına maliyyə yardımı göstərməsi, həm bu qurumun tövsiyələrinə məsuliyyətlə əməl etməsi, o tövsiyələrdən irəli gələn məsələlərə özünün könüllü təşəbbüs göstərməsi ÜST tərəfindən də təqdir edilir. Azərbaycan bu məsələdə çox nümunəvi addımlar atmaqla özünü beynəlxalq aləmdə bir daha təsdiqlədi. Bu gün bir çox ölkə pandemiya dövründə Azərbaycanda tətbiq edilən mübarizə üsullarını özləri üçün nümunə hesab edərək onları tətbiq etməyə başlayıb. Ona görə də ÜST-nin təşəkkürü təbiidir. Azərbaycanın həm ÜST-nin qarşıya qoyduğu tövsiyələrə ciddi şəkildə riayət etməsi, eyni zamanda, bu qurumla sıx əməkdaşlıq etməsi, birmənalı şəkildə, ölkəmizin dünyada mövcud olan bu problemin aradan qaldırılması üçün həyata keçirilən mübarizə tədbirlərinə böyük töhfədir".

Azərbaycan dövlətinin bu istiqamətdə böyük fəallıq ortaya qoyduğunu deyən V.Rəhimzadənin sözlərinə görə, Azərbaycan dövləti müxtəlif məsələlərlə bağlı bir sıra beynəlxalq videokonfransların, videomüzakirələrin keçirilməsi təşəbbüsünü irəli sürməklə bu qlobal problemin həllində nə qədər fəal olduğunu ortaya qoydu.

***İradə SARIYEVA***

# ABŞ-ın dini azadlıqlar hesabatında Azərbaycanla bağlı qeyri-obyektiv məlumatlar elə hesabatı hazırlayan komissiyanın öz daxilində etirazla qarşılandı

**ABŞ-ın Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiyası (USCİRF) növbəti illik hesabatını yayıb. "Trend"-in məlumatına görə, komissiyanın hesabatında Azərbaycanla bağlı məlumat dərc olunub.**



Siyahıya Azərbaycanla yanaşı, Türkiyə, Qazaxıstan, Özbəkistan, İndoneziya, Malayziya, Cənubi Afrika Respublikası və bir sıra ölkələrin adları əlavə edilib. Qeyd olunmalıdır ki, həmin Komissiya öz fəaliyyətində bir sıra ölkələrə qarşı qərəzli yanaşma ilə seçilir.

Hesabatda dini azadlıqların qorunması sahəsində Azərbaycanın qonşu ölkələrdən daha çox nailiyyətlər əldə etdiyi qeyd olunub. Bununla yanaşı, ötən illərdə olduğu kimi, bu il də hesabatın Azərbaycana dair hissəsində bəzi qeyri-obyektiv və həqiqəti əks etdirməyən məqamlar öz əksini tapıb.

Ötən il də olduğu kimi, Komissiyanın 9 üzvündən biri Coni Mur (Johnnie Moore) bu qərəzli yanaşma ilə razılaşmayaraq öz xüsusi rəyini açıqlayıb və bu mövqe hesabata daxil edilib.

Coni Mur Azərbaycanın bu hesabata daxil edilməsini düzgün hesab etməyib. O, Azərbaycanda sünni və şiə məzhəbinə aid nümayəndələrin birlikdə ibadət etdiklərini, Evangelist və Rus Ortadoks nümayəndələrinin birlikdə xidmət etdiklərini və yəhudi icmasının tam azad və təhlükəsiz şəraitdə yaşadığını qeyd edib. Həmçinin, C.Mur Azərbaycanın əhalisinin əksəriyyətinin müsəlman olmasına baxmayaraq, hindu liderlərinin Azərbaycanda qonaq edildiklərini, İranla həmsərhəd olan Azərbaycanın əhalisinin əksəriyyətinin şiə olmasına baxmaraq İsraillə ictimai və diplomatik əlaqələrinin olmasını xüsusi qeyd edib.

C.Mur hesab edir ki, dini etiqad azadlığına malik icmalar dövlətin zorakılıq, dini ekstremizm və milli təhlükəsizliklə bağlı narahatlıqlarını nəzərə almalı və özbaşnalığa yol verməməlidir.

Sonda o, Ermənistanla Azərbaycan arasında sülhün tezliklə əldə olunmasının zəruriliyini qeyd edib.

C.Murun sözügedən prinsipial və obyektiv mövqeyi USCİRF-in illik hesabatının əlavəsi kimi dərc edilib.

# Paşinyan öz xalqına son bir ayda verdiyi sözü də pozdu - işıq və qazı kəsdi, gülünc bəhanə...

## *Yeganə Hacıyeva: ”İndi Paşinyanın müxalifəti erməni xalqıdır”*

**Koronavirusla bağlı yaşananlar Ermənistanı katastrofik vəziyyətə salıb. İş o yerə çatıb ki, baş nazir Nikol Paşinyan televizya vasitəsilə əhaliyə müraciət edib ki, qaza, işığa görə kommunal ödənişləri vaxtında etsinlər. Əks təqdirdə vəziyyət daha da pisləşə bilər.**



Paşinyan əvvəl əhaliyə ümid vermişdi ki, kimsənin kommunal borclara görə xidmətləri kəsilməyəcək. İndi isə ölkədə elan olunan fövqəladə vəziyyətin zamanının uzadılmasını bəhanə edərək, əhaliyə qarşı edilənlərə haqq qazandırmağa çalışır. Bu nədən xəbər verir?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, suala cavab verməzdən öncə Nikol Paşınyan hakimiyyətinin Ermənistan cəmiyyətindəki indiki halı haqqında danışmaq lazımdır:"Ölkədaxili prosesləri və vəziyyəti idarə edə bilməyən, ictimai narazılığı dəf edə bilməyəcək hala gələn baş nazir və komandası var. İki illik Nikol Paşınyan hakimiyyətini belə xarakterizə etmək olar: xalqa verilmiş populist mesajların fonunda yaranan gözləntilər və güvən böhranı. Bunun məntiqi nəticəsi kimi, başda Nikol Paşınyan olmaqla, səriştəsiz hakimiyyət məmurlarına total etimadsızlıq mühiti formalaşıb. Bu iki il ərzində Paşınyanın ölkədaxili və xarici mövzularda problemlərin mahiyyətini anlamayacaq qədər səriştəsizliyi, yeni və təcrübəsiz kadrların sayəsində idarəetmədə səmərəsizlik karantin zamanlarında xüsusilə gözə çarpdı və ölkədə yeni hökumətə onsuz da itmiş güvəni daha da sarsıtdı". Ekspertin sözlərinə görə, koronavirus zamanı qonşu olkələrin, xüsusilə torpaqlarını işğal etdiyi Azərbaycan və Gürcüstanın uğurlu idarəçiliyi haqqında məlumatlar Nikol Paşınyanın nəinki cəmiyyət arasında ictimai legitimliyini, həm də öz komandasında nüfuzunu şübhə altına qoydu:"Son günlər Ermənistan mediasında yeni hakimiyyət nümayəndələrinin keçmiş hökumətin bir sıra üzvləri ilə kontaktlarının meydana gəlməsi haqqında silsilə ifşalar gedir. İki gün bundan öncə NIkol Paşınyanın sosial media üzərindən etdiyi canlı yayımda əsəbi bir vəziyyətdə ona xəyanət edənləri "linç"lə hədələməsi qədər nəzarətdən çıxması buna sübütdür. Paralel olaraq Ermənistanda yeni siyasi konfiqurasiyaların qurulmasının şahidi oluruq. Bu proseslərdə fəallıq müxtəlif siyasi təsir qrupları, ilk növbədə, eks-prezident Köçəryanın və onun varisi Sarkisyanın əleyhinə işlərdə iştirak etmiş şəxslərin yaxın çevrəsində müşahidə olunur. Məsələ ondadır ki, Nikol Paşınyanın davranışları prosesə nəzarəti itirməsini daha çox büruzə verir, pandemiyanın fəsadları fonunda daha da dərinləşən böhrandan çıxış yolları axtarmaq, bütün qaynaqları səfərbər etmək əvəzinə bütün imkanlarını, hətta nəzəri olaraq onu təhdid edə biləcək insanları zərərsizləşdirməyə çalışır. Məsələn, karantinə rağmən Röbert Köçəryanın məhkəməsi davam edir, Serj Sarkisyanın kürəkəni Mikayıl Minasyanı və Qarabağ klanının əsas maliyyəçisi Qagik Tsarukyanı həbs etmək üçün tədbirlərini davam etdirir.

Ancaq məsələ ondadır ki, Nikol Paşınyan hakimiyyətinə müxalifət artıq çoxdan hər hansı bir siyasi qrup çərçivəsini aşıb və indi Paşınyanın müxalifəti erməni xalqıdır. Enerji daşıyıcıların qiymətinin qalxması ilə onsuz da çətin vəziyyətdə olan vətəndaşlar karantin günlərində enerji pulunu ödəyə bilmədiyi üçün günlərini qaranlıqda keçirməyə məcbur qalır və s. Bir sözlə, koronavirus pandemiyası və karantinin bitməsindən sonra istər "Mənim addımım" blokunun , istərsə də hökumətin başının üstünü qara buludların alacağı şübhəsizdir".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ Departamentindəki erməni lobbiçiləri təcavüzkar Ermənistanın silahlanmasını gözdən yayındırdı, Azərbaycanı isə silahlanma qaydalarını guya pozmaqda...

## *İbrahim Rüstəmli: ”Azərbaycanın işğal olunmuş əraziləri haqqında Dövlət Departamenti danışmır, ancaq belə əsası olmayan hesabatla çıxış edir”*

**ABŞ Dövlət Departamentinin "Silahlara nəzarət, onların yayılmaması və tərksilah üzrə sazişlərə və öhdəliklərə əməl edilməsi" adlı yeni hesabatı dərc olunub. Bu, Departamentin silahlara nəzarətə və ölkələrin beynəlxalq öhdəliklərə əməl etməsinə dair illik hesabatdır.**

### *”Ölkəmizin silah uçotunu aparmaq tamamilə məntiqdən uzaq bir mövqedir”*

Hesabatda qeyd olunur ki, Azərbaycan və Rusiya Avropada adi silahlı qüvvələr haqqında müqaviləni pozur və ya ona əməl etmir. Bundan əlavə, həmin müqavilə üzrə bir sıra digər öhdəliklərin yerinə yetirilmədiyi də iddia edilir.

Hesabatda Azərbaycanla ələqədar deyilir ki, ölkədə ümumi silah sayı "2019-cu ildə TLE həddini aşmaqda davam edib və müqavilənin bəzi digər öhdəliklərinin yerinə yetirilməməsi" baş verib. Bununla yanaşı, Dövlət Departamenti Azərbaycanı Vyana sənədinin (VD11) tələb etdiyi kimi, "2019-cu ildə əsas hərbi təlimlər" barədə xəbərdarlıq etməməkdə ittiham edib.

Bütövlükdə, ABŞ Dövlət Departamentinin hesabatında Azərbaycanla bağlı əksini tapan məqamlar nə dərəcədə ədalətlidir və reallığı özündə əks etdirir?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin fikrincə, hesabatda Azərbaycanla bağlı məqamlar obyektivlikdən uzaqdır: "Əvvəla Azərbaycanın bütün beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən tanınan ərazi bütövlüyü Ermənistan tərəfindən pozulub. Azərbaycan bilavasitə hərbi təcavüzə məruz qalıb və 1 milyondan çox məcburi köçkünü var. Ərazisinin 20 faizi işğal altındadır. İşğal olunmuş ərazilərdə terrorçuların təlim düşərgələri var, qanunsuz narkotik ticarəti həyata keçirilir. Belə olan halda, Azərbaycanı Avropada adi silahlı qüvvələr haqqında müqaviləni pozmaqda ittiham etmək tamamilə absurd yanaşmadır. Azərbaycanın işğal olunmuş əraziləri haqqında Dövlət Departamenti danışmır, ancaq belə əsası olmayan hesabatla çıxış edir. Azərbaycan müharibə vəziyyətindədir və zaman-zaman Ermənistanın hərbi təhdidlərinə məruz qalır. Belə olan halda, silahlanmaq Azərbaycanın tam haqqıdır. Ölkəmizin silah uçotunu aparmaq tamamilə məntiqdən uzaq bir mövqedir. Azərbaycan dəfələrlə bəyan edib ki, münaqişənin sülh yolu ilə həllində maraqlıdır. Ancaq bunu təmin etməklə bağlı beynəlxalq qurumlar, o cümlədən, aparıcı dövlətlər praktiki addım atmırlar. Azərbaycanın istəyi odur ki, dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü təmin edilsin. Bununla bağlı danışan yoxdur, amma Azərbaycanın silahlanmasından danışırlar. Ermənistan müdafiə naziri Tonayan bəyan edir ki, bizim Azərbaycanın başqa ərazilərinə də iddiamız var. Belə olan halda, Azərbaycan neynəməlidir? Təbii ki, müdafiə qüdrətini artırmalıdır".




***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Ermənistan Qarabağ məsələsində geri çəkilməyə başlayır: Moskva İrəvanın isterikasını qulaqardına vurur, Paşinyan və komandasının yalanları işləmir...

**Dağlıq Qarabağ münaqişəsinin mərhələli həlli istiqamətində danışıqlar prosesinin getməsinin rəsmi səviyyədə növbəti təsdiqini tapması işğalçı Ermənistanda isterik bir vəziyyət yaradıb. Ermənistanda mövcud hakimiyyət bunu təkzib etməyə çalışsa da, faktlar tamam başqa bir mənzərəni üzə çaxarır.**

Indi iş o yerə çatıb ki, Ermənistanın özündə belə hakimiyyəti yalan danışmaqda ittiham edənlərin sayı artıb. Rusiyalı politoloq Stanislav Tarasov bunu təsadüfi saymır. O xatırladır ki, hələ də İrəvan Rusiya xarici işlər naziri Sergey Lavrovun Qarabağ münaqişəsinin mərhələli həllinə dair açıqlamalarına Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan, Ermənistan XİN-in sözçüsü Anna Nağdalyan səviyyəsində cavab verməyə davam edir. Lakin ekspert bunu əbəs sayır. Stanislav Tarasov qeyd edir ki, Minsk Qrupunun həmsədr ölkələrindən biri olan Rusiyanın xarici işlər naziri "Kazan planı" haqqında danışır, Azərbaycan bunu təsdiqləyir, həmsədrlər bu bəyanatı şərh etmir, Ermənistan isə buna qarşı çıxır: "Yəni Fransa, ABŞ, Rusiya, üstəgəl Azərbaycan dördü birlikdə bir şeyi deyir, biri başqa şey deyir. Kim yalan danışır? Cavab aydındır. Ermənistan rəsmiləri bu durumda sakit qalsalar yaxşıdır".

Yeri gəlmişkən qeyd edək ki, xarici işlər naziri Elmar Məmmədyarov da Sergey Lavrovun Dağlıq Qarabağla bağlı son bəyanatını şərh edərkən məhz mərhələli həll üzrə danışıqlar prosesinin aparılmasını təsdiq edib. Lavrovun Qarabağla bağlı son bəyanatı və onu erməni həmkarı Zöhrab Mnatsakanyanın verdiyi məlum reaksiya ilə bağlı Məmmədyarov deyib:"Ermənistanın xarici işlər naziri cavab replikasında bildirib ki, torpaqların qaytarılması məsələsi müzakirə olunmur, həmçinin o, təhlükəsizlik və xalqların öz müqəddəratını təyinetmə məsələlərinə toxunub. Aydındır ki, belə ritorik hücumu o, daxili auditoriyanı sakitləşdirmək üçün edib. Əks halda həmin o Mnatsakanyan bu bəyanatdan bir neçə saat sonra videokonfrans şəklində danışıqların davamına qoşulmazdı. Əgər soruşsanız ki, Azərbaycan XİN bu xüsusda nə edib, deyərdim: Azərbaycan tərəfi göstərdi ki, sözü ilə əməli üst-üstə düşür, mövqeyi dəyişməzdir. Bizim yeganə hədəfimiz beynəlxalq səviyyədə tanınmış əraziləri azad, məcburi köçkünlərimizin hüquqlarını isə bərpa etməkdir. İşğalçı ölkə indiyədək tamamilə əsassız olan, özünü, beynəlxalq birliyi aldatmağa yönəlik çoxlu sayda bəyanat verib. Lakin həqiqət sarsılmazdır: beynəlxalq hüququ kobud şəkildə tapdamağın və təməl insan haqlarını kütləvi şəkildə pozmağın ardınca təhlükəsizlik və öz müqəddəratını təyinetmə hüququ haqda boşboğazlıq etmək beynəlxalq birgəyaşayışın heç bir qanunu və normasına sığmır və heç vaxt da sığmayacaq. Biz həmişə vicdanlı şəkildə və qoyulan hədəfə doğru dönmədən hərəkət edirik. Bu işdə beynəlxalq hüquq və ədalət bizimlədir. Bəllidir ki, danışıqlar konfidensial xarakter daşıyır və detallar açıqlanmır. Ancaq bu günədək həmsədrlər tərəfindən, həmçinin həmsədr dövlətlərin rəhbərləri səviyyəsində verilən bəyanatlarda nizamlama prosesinin ümumi çərçivələri cızılıb. Onların hamısında konfliktin mərhələli həllinin elementləri, yəni münaqişənin nəticələrinin addımbaaddım aradan qaldırılması əksini tapıb. Orada ilkin mərhələdə Dağlıq Qarabağ ətrafındakı ərazilərin azad olunması və həmin ərazilərdən qovulan azərbaycanlıların öz doğma yurdlarına qayıtması, Azərbaycanla Ermənistan arasında kommunikasiyaların açılması yer alır. Dağlıq Qarabağın hər iki icmasının müəyyən müddətə birgə yaşayışı üçün şəraitin təmin edilməsi, sonrakı mərhələlərdə isə Azərbaycanın ərazi bütövlüyü gözlənilməklə regionun statusuna baxılması nəzərdə tutulur. Guya bu elementlərin müzakirə edilmədiyini və danışıqlar stolu üzərində heç bir sənədin olmadığını iddia edən erməni tərəfi öz həmvətənlərini aldatmaqdansa, yaxşı olar, boş yerə vaxt itirmədən öz xalqını beynəlxalq ictimaiyyət qarşısında razılaşdığı kimi sülhə hazırlasın".

Beləliklə, bu açıqlamadan bir daha bəlli olur ki, Qarabağ münaqişəsinin çözümü ilə bağlı danışıqlar məhz mərhələli həll planı üzərində aparılır. Məhz bu durumda Ermənistanı narahat edən əsas məqamlardan biri isə danışıqlarda yalnız qalması, mövqeyinin heç kim tərəfindən müdafiə edilməməsidir. Xüsusən də Rusiyanın onu yalnız buraxması Ermənistanda əsl ajiotaja səbəb olub. Burada diqqət həm də ona yönəldilir ki, Lavrovun erməni auditoriyası üçün o qədər də xoş olmayan açıqlamalarından sonra Rusiya tərəfi Azərbaycan mediasına Rusiya Xarici İşlər Nazirliyi səviyyəsində şərh verməkdə davam edir. Ermənistan isə burada diqqətə alınmır. "168.am" nəşri yazır ki, bütün bunlar Lavrovun mərhələli nizamlama sənədlərindəki qeydlərinin açıq şəkildə Azərbaycana sərfəli olduğu halda, erməni ictimai və siyasi dairələri arasında daha çox sual doğurduğu bir vaxtda baş verir. Məsələ burasındadır ki, Ermənistan Xarici İşlər Nazirliyinin açıqlamalarından sonra erməni jurnalistlər dərhal Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi, xüsusilə də Mariya Zaxarova ilə əlaqə saxlamış, bu mövzu ilə bağlı yazılı şəkildə də suallar vermiş, ancaq erməni tərəfindən göndərilən suallarda ifadə olunan narahatlıqlara məhəl qoyulmadan, göndərilən sualları cavablandırmadan, eyni dövrdə Rusiya tərəfi Azərbaycan mediasının bir neçə sualına cavab verib.

Məsələn, Azərbaycanın "Trend" xəbər agentliyinin sualını cavablandıran Rusiya Xarici İşlər Nazirliyi qeyd edib ki, ATƏT-in Minsk Qrupunun həmsədri kimi Rusiya, ABŞ və Fransanın birgə bəyanatlarında Rusiya Xarici İşlər Nazirliyinin mövqeyi dəfələrlə ifadə edilib. Rusiya Xarici İşlər Nazirliyinin məlumatına görə, bu, Helsinki Yekun Aktının təməl prinsiplərinə, o cümlədən güc tətbiq edilməməsi, ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə hüququ prinsiplərinə əsaslanır.

"Bu ifadələrdə yer alan tənzimləmə elementləri arasında Dağlıq Qarabağ ətrafındakı ərazilərin geri qaytarılması, həmçinin əhalinin iradəsi ilə Dağlıq Qarabağın son hüquqi statusunun müəyyənləşdirilməsi də var. Müzakirə olunmuş və olunan sənədlərə və təkliflərə gəldikdə, Rusiya Federasiyasının Xarici işlər naziri Sergey Lavrov onları sadaladı". "168.am" yazır ki, Rusiya XİN indi Ermənistan tərəfinə tamam fərqli bir münasibət sərgiləyir:"Məsələn, Rusiya Xarici İşlər Nazirliyi erməni tərəfinin suallarına hələ də aydınlıq gətirməyə tələsmir. Maraqlıdır ki, rəsmi Moskva Dağlıq Qarabağ münaqişəsinin həssas olduğunu və onu ictimai müzakirə sahəsinə keçirməyin səmərəsiz olduğunu əlavə edib. Halbuki, aylar əvvəl, yanvarın 31-də ATƏT-in Minsk Qrupu həmsədrləri münaqişənin sülh yolu ilə həllinə tərəfləri dəstəkləmək və nizamlama prosesində məxfilik prinsipinə tam sadiq olduqlarını bir daha təsdiqləyən bəyanat vermişdilər. Əslində, Rusiya məxfilik prinsipinə tam sadiqliyi, həll prosesinin məxfilik prinsipini pozur". Rusiyalı hərbi ekspert Vladimir Yevseyev Ermənistan-Rusiya ikitərəfli münasibətlərindəki vəziyyəti şərh edərək, məsələni ikitərəfli münasibətlərdə mövcud bəzi fikir ayrılıqları baxımından dəyərləndirib.

Onun sözlərinə görə, bu, Rusiya Xarici işlər nazirinin zaman-zaman sənədlərin mövcud olduğunu söyləməsi ilə bağlı gərginlik amili də ola bilər:

"Münasibətlər bütün sahələrdə öz axarı ilə irəli getmədikdə, digər sahələrdə də bəzi problemlər yaranır, ya da oxşar problemlər görünür. Məlumdur ki, bütün bunlarda hər hansı bir tərəf üçün heç bir yenilik yoxdur və bu danışıq masasında sənədlərin olması heç kim üçün təəccüblü deyil. Rusiya tərəfi də eyni şeyi deyir, bu sənədlərin erməni tərəfi üçün tam məqbul olmadığı məlumdur. Erməni tərəfi paket həllini nəzərdə tutur ki, bu da öz növbəsində qarşı tərəfin maraqlarına cavab vermir. Əlbəttə ki, ikitərəfli münasibətlərin pozulmasının nizamlama prosesinə təsir etmədiyini deyə bilmərik".

Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq Sergey Markov da bildirir ki, Rusiyada artıq Ermənistana əvvəlki münasibət yoxdur və bu da İrəvanı ciddi narahat edərək, qeyri-adekvat mövqe sərgiləməsinə səbəb olur:"Bu mənada, Ermənistan Xarici İşlər Nazirliyinin Sergey Lavrovun Dağlıq Qarabağla bağlı bəyanatını təkzib etmək cəhdləri siyasi kobudluqdur". Onun sözlərinə görə, Paşinyanın komandası əvvəl də Rusiya ilə bağlı dözülməz davranışlar sərgiləyib:"O daim yalan danışır, ABŞ və Avropa İttifaqına quyruq bulayır, ölkə daxilində siyasi opponentlərini, həmçinin, rusiyayönümlü siyasətçiləri təqib edir. Rusiyada yaşayan erməni diasporu indiyə qədər Paşinyan komandasına qarşı münasibətin sərtləşməməsinə səbəb olan amildir. Bu diaspor siyasi dairələrdə, biznesdə, mətbuatda və kriminal strukturlarda nüfuzludur. Amma diaspor nə qədər müdafiə edə biləcək?! Moskvanın səbri tükənir, bu da, Dağlıq Qarabağ münaqişəsi də daxil olmaqla, ümumi münasibətdə sərt mövqenin sərgilənməsi ilə nəticələnə bilər. Lavrovun bəyanatı sübut edir ki, Paşinyan Moskvanı çox qıcıqlandırır və Ermənistan Xarici İşlər Nazirliyi təsadüfən Lavrova diş qıcamadı". Markov hesab edir ki, tezliklə danışıqlar atmosferi dəyişəcək və Ermənistan Qarabağ məsələsində geri çəkilməyə başlayacaq:"Pandemiya və dünya iqtisadiyyatında yaranmış böhran Ermənistanı buna məcbur edəcək". Hər halda, proseslərin inkişaf axarı Ermənistanın həqiqətən də Qarabağ məsələsində geri çəkilmək məcburiyyətində qaldığını deməyə əsas verir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Türk dövlətlərinin səhiyyə nazirliklərinin yeni birgə qurumu - postkorona dövrünün inteqrasiyaları başlayır

**Səhiyyə naziri Oqtay Şirəliyev son müsahibəsində deyib ki, türkdilli dövlətlərin səhiyyə nazirlikləri arasında yeni qurum yaradılacaq. Nazir baş tutan türkdilli dövlətlərin səhiyyə nazirlərinin görüşü haqqında məlumat verərkən bildirib ki, bu görüşdəki müzakirələr böyük əhəmiyyətə malikdir:**

***Rauf Zeyni:** "Bu qurumun yaradılması digər beynəlxalq təşkilatlara və birliklərə örnək sayıla bilər"*



"Bildiyiniz kimi, Prezident İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib. Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunub. Bu görüşdə Prezident İlham Əliyevin təklifi idi ki, həmin ölkələrin səhiyyə nazirləri də videokonfransla görüşərək pandemiya ilə bağlı öz fikirlərini bölüşsünlər. Çox qısa vaxtda ölkələrlə əlaqə saxlanıldı və bu fikir həmin ölkələr tərəfindən də məmnuniyyətlə dəstəkləndi. Bu gün görüş baş tutdu. Görüşdə Türkdilli dövlətlərin səhiyyə rəhbərləri ilə yanaşı, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Bürosunun direktoru Hans Klüqe də iştirak edib. O, Azərbaycanda dəfələrlə olub və vurğulayıb ki, Azərbaycan Prezidentinin səhiyyəyə olan dəstəyinin şahidi olub. Bu dəstəyin nəticəsində səhiyyənin burada gözəl infrastrukturu var, eyni zamanda güclü, çevikdir". Nazir bildirib ki, cənab Prezidentin səhiyyə nazirlikləri arasında bir ekspert qurumu yaradılması ilə bağlı təklifi olmuşdu:"Bütün infeksiyalara qarşı ümumi strategiya yaradılsın, bütün əsas məlumatlar, epidemioloji nəzarət, profilaktika, yeni müalicə üsulları və s. müzakirə edilsin. Bütün iştirakçılar bu təklifi dəstəklədi və tərəflərin ekspertlərindən ibarət Birgə İşçi Qrupunun yaradılması qərara alındı".

Göründüyü kimi, türkdilli ölkələrin səhiyyələri arasında Birgə İşçi Qrupun yaradılması ilə bağlı qərar qəbul edilib. Bunun pandemiya və postpandemiya dönəmi üçün nə kimi əhəmiyyəti olacaq? Milli QHT Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, yeni yaradalan qurumun ideya müəllifi də cənab İlham Əliyev olub:"Bir daha sübut olundu ki, Azərbaycan bəşəri problemlərlə bağlı yalnız özünü düşünmür. Adətən belə təşəbbüslərlə çox böyük dövlətlər çıxış edir. Ancaq biz müxtəlif istiqamətlər üzrə Azərbaycanın böyük təşəbbüskarlıqlarının şahidi olmuşuq. İş burasındadır ki, bu təşəbbüslər söz olaraq deyilib sonra yaddan çıxmayıb. Hər birinin həyata keçməsi üçün səy göstərilib, vəsait xərclənib. Bu bir daha bizim ölkənin qüdrətindən xəbər verir. Aprelin 10-da Prezident İlham Əliyevin təşəbbüsü ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirildi. Videokonfransa türkdilli dövlət başçıları ilə yanaşı Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru da qatılmışdı. Həmin vaxt ölkə başçısı belə bir təşəbbüsü irəli sürdü. Düşünürəm ki, dövlətlər səviyyəsində atılan bu addımın təcrübə mübadiləsinin aparılması, türkdilli ölkələrin bir-birinə dəstək göstərməsi və xalqlarımız arasında həmrəyliyin möhkəmləndirilməsi baxımından önəmli olacaq. Bununla bir daha sübut olundu ki, indiki ağır şəraitdə də türkdilli ölkələr əlaqəli şəkildə fəaliyyətlərini davam etdirməyə qadirdirlər. Bu qurumun yaradılması digər beynəlxalq təşkilatlara və birliklərə örnək sayıla bilər. Koronavirusla bağlı pandemiya özlərini strateji tərəfdaş adlandıran ölkələr arasında müxtəlif fikir ayrılıqları yaradarkən, qarşılıqlı ittihamlara yol açarkən Türk Şurasının üzvləri əsl əməkdaşlıq və anlaşma nümunəsi göstərirlər və bu əzmlə davam etmək niyyətində olduqları bir daha göründü. Hesab edirəm ki, səhiyyə qurumları arasındakı bu əməkdaşlıq formatı postpandemiya dönəmi üçün də önəmlidir və bunun ölkələrə yalnız faydası dəyəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Koronavirus dövründə "icad olunan" daha bir cinayət forması - işlənmiş maskaları yenidən bazara qaytaran işbazlar(?)...

**Azərbaycanda koronavirusla mübarizə üçün istifadə olunan tibbi maskaların ilk günlərdə çatışmazlığı, daha sonra zəruri olub-olmaması və nəhayət, onlardan necə istifadə edilməsi uzun müddət müzakirə predmeti olub.**

*"10 dənə maska toplayır, 5 dənəsi təzə, 2-sini də onun arasına qoyaraq..."*

***Eyyub Hüseynov:** "Bəzi işbazlar tullanmış maskaları yuyurlar və yaxud yumayaraq təzədən satışa çıxarırlar"*



Koronavirusdan qorunmaq üçün insanlar mütləq tibbi maska taxmalıdırlar. Adıçəkilən xəstəlikdən qorunmaq üçün insanlar gigiyenik qaydalara riayət etməklə yanaşı, tibbi maska və əlcəkdən istifadə etməlidirlər. Artıq iki aya yaxındır müxtəlif məqsədlə evdən çölə çıxan insanlar tibbi maskadan istifadə edirlər.

Təəssüf ki, bəzi şəxslər istifadə etdikləri maskanı zibil qutusuna deyil, hara gəldi atırlar. Təbii ki, bu halda virus yayılır.

İddialara görə, istifadə olunduqdan sonra küçələrə, parklara və yaxud da zibil qutularına atılan tibbi maskalar sonradan bəzi işbazlar tərəfindən yığılaraq, müəyyən prosedur həyata keçirildikdən sonra yenidən satışa çıxarılır.

Mütəxəssislər vətəndaşlara tibbi maskaları istifadə etdikdən sonra əzərək, ya da cıraraq yararsız vəziyyətə salmağı tövsiyə edirlər. Belə olan halda, maskanın təkrar istifadəyə çıxarılmasının qarşısını almaq olar.

Məsələ ilə bağlı Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynovla əlaqə saxladıq.

O bizimlə söhbətində bildirdi ki, bəzi işbazlar tullanmış maskaları yuyurlar və yaxud yumayaraq təzədən satışa çıxarırlar: "İstehlakçılar zəng vurub deyirlər ki, biz səhər zibil yeşiyinin yanından maskaları yığıb üst-üstə qoyan adam görmüşük. Zibil yeşiyinin yanından maska yığanların məqsədi istifadə olunmuş maskaları toplayıb yenidən hazırlayaraq satışa çıxarmaqdır".

Ekspertlərin sözlərinə görə, bu, koronavirusdan da ağır xəstəliklərin yayılmasına səbəb ola bilər.

Həmsöhbətimiz qeyd etdi ki, tullanmış maskaları yığan şəxslər hiyləgərliyə əl atırlar: "Belə ki, 10 dənə maska toplayır, 5 dənəsi təzə, 2-sini də onun arasına qoyaraq satırlar. Kəndlərdə, rayon yerlərində hər yerdə aptek yoxdur. Həmin yerlərdə yaya bilirlər. Bəli, yəni bunlar yığılır, yenidən çıxarılır bazara. Necə ki, vaxtı keçmiş malların vaxtını dəyişərək təzədən çıxarırlar bazara. Yəni maska da alınan bir şeydir, ona da tələbat var".

***Günel CƏLİLOVA***

# İrəvanda Mahatma Qandiyə heykəl qoymaq ermənilərin nəyinə lazımdır...

**Hindistanın Milli Azadlıq Hərəkatının siyasi və ruhani lideri Mahatma Qandiyə Ermənistanda heykəl qoyulacaq. Erməni mediasının yazdığına görə, heykəl İrəvan şəhərində ucaldılacaq. Ermənistanın Hindistanın nəhəng şəxsiyyətinə heykəl qoymaq niyyətinə düşməsinin şübhəsiz ki, arxasında hansısa təmin olunmamış maraqlar və məkrli fikirlər dayanır.**

Bütün dünya xalqlarına yaxşı məlumdur ki, M.Qandi kifayət qədər humanist şəxsiyyət olub və dinc siyasi mübarizənin tərəfdarı, hətta banisi kimi tanınır.

Faşizmə könül verən, faşist əlaltılarına heykəllər ucaldan Ermənistanın M.Qandiyə heykəl ucaltmaqla bağlı qərar qəbul etməsi bu ölkənin tutduğu mövqe ilə qətiyyən adekvat deyil.

Yeri gəlmişkən vurğulayaq ki, ermənilər son bir neçə ildir özlərini Hindistana calamaq istiqamətində addımlar atırlar. Hətta özlərinin hindlilərlə tarixi yaxınlıqlarını da vaxtaşırı gündəmə gətirirlər. Özlərini müxtəlif xalqlara calaq etməkdə mahir olan ermənilər son illər Hindistandan, hindlilərdən də onəlli yapışmaq istəyirlər.

Xatirinizdədirsə, bir neçə il əvvəl Ermənistanın sabiq prezidenti Serj Sarkisyan Hindistanda rəsmi səfərdə olarkən türk-moğol memarlığının nadir incilərindən olan və dünyanın 7 möcüzəsindən biri sayılan, Sultan Cahanşahın sifarişi ilə sevimli xatunu Mümtaz Mahalın xatirəsinə inşa edilən Tac Mahalın erməni memarları tərəfindən tikildiyini utanmadan bəyan etmişdi. Bundan başqa, o, Mümtaz Mahalı da ermənilərə calaq etməyə cəhdlər etmiş və ermənilərlə hindlilər arasında tarixi qohumluq əlaqələrindən də danışmışdı. Əlbəttə, bunun quru erməni iddiasından başqa bir şey olmadığını hər kəs bilir.

Bundan başqa, bədnam Stepan Şaumyanın məzarının da Hindistanda olduğu haqqında məlumatlar var. Hətta KİV-də onun məzarının şəkillərinin də yayıldığı məlumdur.

Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev Ermənistanın M.Qandiyə heykəl qoymaq istəyində olmasına münasibət bildirərkən qeyd etdi ki, doğrudan da Ermənistanın davranışlarında diqqətçəkən təzadlı məsələlər özünü büruzə verir: "Bütün dünyanın faşistlərin əlaltısı kimi tanıdığı, faşizmin təbliğatçısı olan Njdeyə heykəl qoyan bir dövlətin indi də belə bir niyyətə düşməsində kifayət qədər şübhəli məqamlar var. Bu, Ermənistanın özünü dünyaya təqdim etmək üçün əl atdığı yeni variantdır. Bütün dünyanın sülhpərvər xadim kimi tanıdığı, Hindistanın inkişafına, dirçəlməsinə böyük töhfələr vermiş bir şəxsiyyətin Ermənistanda heykəlinin qoyulmasına gəlincə, bunu başqa bir ölkə etsəydi, buna humanist bir addım kimi yanaşmaq olardı. Amma Ermənistanın Mahatma Qandiyə heykəl qoymaq istəyini birmənalı qarşılamaq mümkün deyil, bunun arxasında ermənilərin hansısa bir marağı gizlənib. Ermənilər son vaxtlar özlərini dünyanın qədim xalqlarından olan yəhudilərlə "qohum" hesab edirlər, hətta çinlilərlə eyni soykökə malik olduqlarını da iddia ediblər. Amma belə deyil. Ermənilərin mənşəyi iki xalqla daha çox bağlıdır. Farslarla və hindlilərlə. Hindistanda müxtəlif tayfalar var. O tayfaların içində heç bir qaydaqanuna riayət etməyən, köçəri həyat keçirən qaraçılar olub. Biz dəfələrlə bu barədə müzakirələr aparmışıq, yazmışıq. Akademik Marın dediyi kimi, onlar hibrit toplumdur. Ermənilər fars kökənli olmaqla yanaşı, həm də Hindistan qaraçılarıdır" - deyə qeyd edən Q.Hacıyevin sözlərinə görə, hətta XX əsrin əvvəllərində bəzi erməni partiyaları belə qərar vermişdilər ki, ermənilərə qaraçı deyən hər kəs cəzalandırılsın. Ermənilər arasında qaraçı olduqlarını etiraf edənlərə qarşı konkret cəza tədbirləri tətbiq edildiyini deyən Q.Hacıyevin bildirdiyinə görə, bu faktlar da var. "Qandinin heykəlindən Ermənistanın hansı məqsədlə istifadə edəcəyi hələ məlum deyil, amma burada kifayət qədər şübhəli məqamlar var. Hind qaraçıları olan ermənilər Qandiyə heykəl qoymaqla həm bir daha özlərinin hind qaraçısı, həm də Cənubi Qafqaza son əsrlərdə gəlmə olduqlarını sübut etmiş olarlar" - deyə professor Q.Hacıyev bildirdi.

O, həmçinin, vurğuladı ki, indiyə qədər başqa dövlətlərdən aldıqları ianələr hesabına yaşayan ermənilərin Qandiyə heykəl qoymaqla yəqin Hindistandan da umacaqları var: "Bildiyimiz kimi, indiyə qədər Avropanın böyük dövlətləri qarşısında özlərini məzlum göstərə-göstərə, ağlaya-ağlaya, "türklər bizi qırıb" deyə haray çəkərək, bu dövlətlərdən çoxlu yardımlar alıblar. Onlar bu yardımlardan hərtərəfli istifadə ediblər. Hətta keçən əsrin əvvəllərində Bristol ABŞ Prezidentinə yazırdı ki, sizin ayırdığınız yardımları ermənilər yaşamaq üçün yox, silah alıb qonşu ölkələrə hücum etmək məqsədilə istifadə edirlər. İndi də, gördüyünüz kimi, müxtəlif adlar altında ayrı-ayrı dövlətlərdən pul yardımları alırlar. Amma onlar arasında artıq Ermənistana pul verməyi dayandıran ölkələr də var. Hazırda ABŞ bundan imtina edib".

Ermənistanın M.Qandi "sevgisi"nin səbəbini izah edən BDU-nun Tarix fakültəsinin Erməni Araşdırmaları Elmi-tədqiqat və Tədris Mərkəzinin böyük elmi işçisi, ermənişünas İsmayıl Tanrıverdi "Bakı-Xəbər"ə bildirdi ki, bunun kökündə ermənilərin Hindistana yarınması dayanır. İ.Tanrıverdiyinin sözlərinə görə, tarixən satqınlıq, yaltaqlıq, saxtakarlıq keyfiyyətlərinə malik olan ermənilərin, hayların əsl vətəni Hindistan olub. Hayların hətta Hindistan qaraçıları kimi tanındığını deyən İ.Tanrıverdinin bildirdiyinə görə, onlar satqınçılıq etdiklərinə görə Hindistandan Mesapatomiyaya qovulublar. "Ermənilər Mahatma Qandiyə heykəl qoymaqla sübut etmək istəyirlər ki, 2 min il əvvəl Hindistanda yaşayıblar. Bunu ermənilər özləri yazırlar. Tarixi mənbələrdən birindən oxumuşam ki, təxminən 1500, 2 min əvvəl Hindistanla Çin arasında müharibə baş verir və Hindistanda yaşayan hayların satqınçılığı nəticəsində həmin müharibə Çinin xeyrinə başa çatıb. Çin Hindistana qalib gəldikdən sonra ermənilər xəyanət etdiklərinə görə Hindistandan qovulublar. Onlar da gəlib Mesapatomiyada məskunlaşıblar. Ermənilər sonra Romaya sığınıb, burada Romaya xəyanət ediblər. Farslara sığınıblar, onlara da arxadan zərbə vurublar. Türkiyə ərazisində sığınacaq alandan sonrakı mərhələlərdə Bizansın, Romanın xeyrinə satqınçılıq edərək türklərə xəyanət ediblər".



**Qasım Hacıyev:** *"...bunun arxasında ermənilərin hansısa bir marağı gizlənib"*

**İsmayıl Tanrıverdi:** *"Ermənilər əsrlər əvvəl xəyanət etdikləri Hindistanın yenidən etimadını qazanmaq, "timsah göz yaşları"na onları inandırmaq üçün..."*

Son illər Ermənistanın Hindistanla əlaqələrinin genişləndiyini deyən ermənişünasın sözlərinə görə, hətta bu gün Ermənistanda hindli tələbələr də təhsil alırlar. Bundan başqa, Hindistandan bir qrup cinsi azlıq nümayəndəsinin gəlib Ermənistanda yaşadığı və hətta 14 nəfər cinsi azlığın bu ölkədə cinayət törətdiyini də qeyd edən İ.Tanrıverdinin sözlərinə görə, ermənilər özlərini Hindistana peyvənd etməklə "qədim xalq" olduqlarını "sübut" etmək istəyirlər.

Müsahibimiz bildirdi ki, ermənilər tarixən saxtakar, satqın və nankor xalq olublar və hətta özlərinin bu keyfiyyətlərini erməni tarixçiləri də qeyd edirlər. "Məşhur İspan yazıçısı Xose Antonio Quriara 1980-ci ildə Madridin mərkəzində ASALA-nın partlatdığı bombadan ağır xəsarət alır, ayağının birini itirir, 2 ildən sonra ASALA-ya üzv olur, qalan ömrünü onlara həsr edir, "Bomba" adlı romanı ilə onları dünyada xoşməramlı kimi tanıdır, onların məşqlərində iştirak edir. Amma o, 82 yaşında rəhmətə gedəndə heç bir erməni onun dəfnində iştirak etmir.

**Bunu ermənilər özləri etiraf edirlər və deyirlər ki, biz ona qarşı nankorluq etdik. İndi ermənilər əsrlər əvvəl xəyanət etdikləri Hindistanın yenidən etimadını qazanmaq, "timsah göz yaşları"na onları inandırmaq üçün İrəvanda Mahatma Qandiyə heykəl qoymaq istəyirlər. Həmçinin, onlar bununla özlərini faşizm tərəfdarı yox, "humanizm" təmsilçisi kimi təqdim etmək istəyirlər. Çünki bütün dünya Ermənistanı faşist əlaltılarına heykəl qoyan, faşizmi dövlət siyasətinə çevirən bir ölkə kimi tanıyır" - deyə İ.Tanrıverdi qeyd etdi.**

*İradə SARIYEVA*

**Məlumdur ki, koronavirus pandemiyası kənd təsərrüfatı məhsullarının da qlobal təchizat zəncirlərini və ticarəti sarsıdıb. Burada taxıl bitkiləri ilə bağlı yaranan durumun getdikcə daha təhlükəli xarakter alması da müşahidə edilməkdədir. Belə ki, pandemiya bəzi ölkələrin əsas taxıl bitkilərinin ixracını məhdudlaşdırmasına və ehtiyat satınalmalarını artırmasına səbəb olub.**

# Dünyanı postpandemiya dövrü üçün təhdid edən taxıl qıtlığı Azərbaycandan yan keçir... Yerli istehsal yetərli həddə...

"Reuters" agentliyi bildirir ki, bu vəziyyətdə ən böyük taxıl ixracatçılarından olan Rusiya da taxıl satışına məhdudiyyətlər tətbiq edib. Hesab edilir ki, Rusiyada taxıl ixracatına tətbiq edilən kvota üzündən dünya bazarında taxıl qıtlığı yarana bilər. Xatırladaq ki, mart ayında Rusiya Kənd Təsərrüfatı Nazirliyi qiymətlərin artmasını əngəlləmək üçün iyunun 30-dək taxıl və bir sıra başqa dənli bitkilərin ixracına 7 milyon ton həcmində limit tətbiq etmişdi. Bu qayda yalnız bir neçə qonşu ölkəyə şamil olunmurdu. Sonradan isə bəlli oldu ki, Rusiya iyulun 1-nə kimi, Avrasiya İqtisadi Birliyi sərhədləri istisna olmaqla, xaricə taxıl ixracatını qadağan edib. Rusiya dünyanın ən böyük taxıl ixracatçısı olduğuna görə, yaranmış vəziyyət üzündən dünya bazarında taxıl qıtlığının baş qaldıra biləcəyi güman edilir. Azərbaycanın da taxıl aldığı ölkə qismində Rusiyanın çıxış etməsi fonunda proses ölkəmiz üçün də maraqlıdır.

Rəsmi dairələr indilikdə narahatlıq üçün heç bir əsas görmür. Məsələn, elə bu günlərdə "Azəraqrar Dövlət İstehsalat və Emal Birliyi" MMC-nin direktoru Anar Hüseynov belə bir açıqlama ilə çıxış etmişdi ki, aqrar sahədə məhsul istehsalı artan xətt üzrə gedir:"Azərbaycanda ərzaq qıtlığının yaşanması üçün heç bir obyektiv əsas yoxdur. Ötən il kənd təsərrüfatında çox yüksək nəticələr qeydə alınıb. Aqrar sektorda məhsuldarlıq göstəriciləri artıb. Bu o deməkdir ki, ölkənin kənd təsərrüfatı məhsulları ilə təmin olunması imkanları da yüksəlib".O bildirib ki, ölkədə payızlıq əkinlər oktyabr-noyabr aylarında həyata keçirilib, taxıl biçininə mayın sonu, iyunun əvvəllərində start veriləcək: "Əkin sahələrində keçirilən monitorinqlər məhsuldarlığın yüksək



olacağını göstərir. Nazirlər Kabineti yanında Operativ Qərargahın son qərarında da qeyd olunur ki, fermerlərin təsərrüfat fəaliyyəti ilə məşğul olması, əkin işi aparması, məhsul yığımı məhdudlaşdırılmır. Fermerlərin toxum, gübrə və pestisidlə təminatına gəldikdə isə, hazırda bu proses normal şəkildə həyata keçirilir, bölgələrdə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatdan keçmiş 85 gübrə təchizatçısı olan hüquqi və fiziki şəxs tərəfindən məntəqələrdə satış təşkil olunur, eyni zamanda böyük şirkətlər səyyar gübrə satışını həyata keçirir".

Digər tərəfdən məlumdur ki, cari ilin ilk rübündə Azərbaycanın buğda idxalı ötən ilin eyni dövrü ilə müqayisədə 50 faiz azalıb. İdxalın azalmasının əsas səbəbi 2019-cu ildə ölkədə taxıl ehtiyatlarının formalaşdırılmasıdır. Belə ki, respublikamızda yerli taxıl istehsalı 6 faizdən çox artıb. Eyni zamanda, buğda idxalı da tələb olunan həddə olub. Çünki 2018-ci ildə dünya bazarında taxılın qiyməti baha idi, ona görə də sahibkarlar yerli ehtiyatlardan daha çox istifadə ediblər. 2019-cu il mövsümündə isə dünya bazarında qiymətlər əlverişli olub. Xüsusilə də Rusiyada məhsul yığımı dövründə qiymətlərin əlverişli olmasına görə sahibkarlar öz ehtiyatlarını yenidən idxal mənbələri hesabına, həmçinin yerli istehsal hesabına tam formalaşdırıblar. Ona görə də bu il Azərbaycanın buğda idxalı azalıb. Ekspertlər hesab edir ki, ölkədə taxıl ehtiyatlarının tam olaraq formalaşması müsbət məqamdır. Yəni hazırda Azərbaycanın taxıl ehtiyatları kifayət qədərdir. Hazırda Azərbaycan buğda idxalının minimallaşdırılması istiqamətində də əməli addımlar atır. Hesablamalara görə, buğda idxalını illik təxminən 700-800 min tona qədər azaltmaq olar. Yerli istehsalın artan xətt üzrə davam etməsi, buğda istehsalının 2,1 milyon tondan 3 milyon tona çatdırılması da əsas hədəflərdəndir. Bundan başqa, Aqrar Elm və İnnovasiya Mərkəzinin Əkinçilik Elmi-Tədqiqat İnstitutu da ölkədə çörək və makaron sənayesinin tələblərinə uyğun yeni sortların yaradılması istiqamətində mühüm addımlar atır. Xüsusən ölkədə bərk buğda sortlarının əkin dövriyyəsinin artırılması, bu istiqamətdə birgə işlərin təşkili sahəsində zəruri addımlar atılır. Fermerlərin bərk buğda istehsalına marağının artırılması istiqamətində genişmiqyaslı tədbirlər görülməsi də buğda idxalının azalmasına rəvac verir. Ümumiyyətlə, Azərbaycanda ərzaq təhlükəsizliyi sahəsində son dövrlərdə zəruri addımlar atılır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ramil Hüseyn də bildirir ki, koronavirus pandemiyasının yayılması ilə dünyada kənd təsərrüfatının inkişafı və əhalinin yerli istehsal hesabına təmini məsələsi ciddi şəkildə aktuallaşıb:"Belə bir şərait göstərdi ki, Azərbaycan kənd təsərrüfatının inkişafına və ərzaq təhlükəsizliyinin təmini məsələsinə xüsusi diqqət yetirməklə düzgün siyasət həyata keçirib.

Son illərdə ölkəmizdə əhalinin yerli kənd təsərrüfatı məhsulları ilə təminatına nail olmaq üçün kənd təsərrüfatının subsidiyalaşdırılması bu baxımdan xüsusi qeyd edilməlidir. Bu fəaliyyətlərin nəticəsidir ki, son 7 il ərzində ölkəmiz ardıcıl olaraq Qlobal Ərzaq Təhlükəsizliyi İndeksindəki mövqeyini yüksəldib. Ötən il Azərbaycan sözügedən hesabatda 53-cü yeri tutub və ərzaq təhlükəsizliyinin təmininə görə Asiya və Sakit okean ölkələri arasında ilk onluqda təmsil olunub. Cari ildə koronavirus pandemiyasının təsiri ilə iqtisadiyyatın bəzi sahələrində zəifləmə gözlənilsə də, kənd təsərrüfatı sahəsində artımın olacağı proqnozlaşdırılır". O vurğulayıb ki, pandemiya şəraitində və ya hər hansı fövqəladə hal zamanı əhalinin taxıl məhsulları ilə təminatında problemin yaranmaması üçün Dövlət Taxıl Fondunun yaradılması da vaxtında verilmiş doğru qərardır.

***Ramil QULİYEV***

# Neft qiymətlərində mühüm dəyişikliklər mərhələsi başladı - proqnozlar 40 dollar həndəvərində...

**Dünya bazarında neftin qiyməti yenidən dəyişən xətt üzrə inkişaf etməkdədir. Bu fonda son məlumatlardan bəlli olur ki, Azərbaycanın dünya bazarına çıxararaq satdığı xam neftin qiyməti 0,78 dollar, yaxud 4,8% artıb. Belə ki, hazırda "Azeri Light" markalı neftin bir barrelinin qiyməti 17,03 dollar təşkil edir.**

Dünya birjalarında digər markalı neftin də qiyməti bahalaşıb. Londonun ICE birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 0,31 dollar artaraq 20,77 dollar, Nyu-Yorkun NYMEX birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 0,94 dollar bahalaşaraq 13,28 dollar təşkil edib. İndi ekspertlər tərəfindən belə fikirlər səslənir ki, artıq qarşıdakı günlər ərzində neft qiymətlərində tədricən artım baş verəcək. Rusiyanın energetika naziri Aleksandr Novak da "qazeta.ru" saytına müsahibəsində qiymətlərdə artım olacağını proqnozlaşdırır. Öncə neftin qiymətində tənəzzülə toxunan nazir qeyd edir:"Hazırda dünya əhalisinin üçdə ikisi özünü təcrid edib və buna görə də yanacaqdoldurma məntəqələrinə tələbat, hava limanlarında kerosin istehlakı və neft emalı zavodlarına yükləmə həddindən çox azalıb. Hazırda gündəlik tələbat 100 milyon barreldən, bəzi hesablamalara görə, 70-80 milyon barrelə düşüb, yəni 20-30 milyon barrel azalıb". Nazirin sözlərinə görə, bununla belə, bu rejimin nə vaxt bitəcəyi, iqtisadiyyatların hansı sürətlə bərpa ediləcəyi, buna müvafiq olaraq məhdudlaşdırıcı tədbirlərin qaldırılacağı və tələbin artacağı hələ məlum deyil:"Məncə, aprel ayı bəlkə də bütün neft sənayesi tarixində ən ağır ay oldu. Praktiki olaraq bütün dünyada insanlar evlərində özünü təcrid edib və özlərinin istehlakçı vərdişlərini əhəmiyyətli dərəcədə dəyişdiriblər, tikinti və avtomobil sənayesi kimi neft-kimya məhsullarının istehlak seqmentləri də azalıb". Amma Rusiya Energetika Nazirliyinin rəhbəri bildirib ki, gələn aydan vəziyyətin dəyişməsi gözlənilir:"May ayında biznesin bərpası və bir çox ölkələrin karantin tədbirlərindən imtinası prosesi başlaya bilər ki, bu da neftə olan tələbatın artmasına təsir göstərəcək. Ancaq hələlik böyük bir qeyri-müəyyənlik var: OPEC+ sazişinin mayın 1-dən etibarən necə işləyəcəyi və bunun nə dərəcədə təsir göstərəcəyi, ölkələrin hasilatı azaltma öhdəliklərini tam yerinə yetirib-yetirməyəcəyi məlum deyil".

Nazirin sözlərinə görə, OPEC+ üzvü olmayan bir çox ölkə hasilatın azaldılmasına töhfə verməyə hazır olduğunu bəyan edib: "Hələlik rəsmi qərarların olmaması səbəbindən bazar bu həcmləri nəzərə almır, hərçənd söhbət ABŞ, Kanada, Norveç, Braziliya, Kolumbiya kimi ölkələrin sayəsində gündəlik 5-10 milyon barrelə qədər böyük həcmlərdən gedə bilər. Bunu, sadəcə yaşamaq lazımdır. İndi qiymətlər aşağıdırsa, bu, vəziyyətin hər zaman belə qalacağı demək deyil. Hazırda gündəlik tələbat təxminən 70-80 milyon barreldirsə, bir müddət əvvəl bu rəqəm 100 milyon barreldən çox idi". Nazir qeyd edib ki, Avropanın şimal və orta bölgələrində neft məhsullarına tələbat artır. Bu proses davam etdiyi təqdirdə bazarların sabitləşəcəyini qeyd edən rusiyalı nazir bildirib:"Məncə, bu pandemiyanın dünyada necə yayılacağı və ona qarşı indiyədək hansı tədbirlər görüldüyü, normal həyata nə qədər tez dönüləcəyi, nəqliyyatın fəaliyyəti, dünya iqtisadiyyatının necə dirçələcəyi kimi məsələlərdən çox şey asılıdır". Nazir, həmçinin, ilin ikinci yarısında iqtisadiyyatın dirçəlməyə başlayacağını, enerji daşıyıcılarına olan tələbatın artacağını güman etdiyini vurğulayıb.

Əlcəzairin energetika naziri, OPEC Konfransının prezidenti Məhəmməd Arkab da bildirir ki, OPEC+ razılığının işə düşməsi ilə neft qiymətlərində tədrici artım dövrü başlanacaq:"İlin ikinci yarısında neftin bir barrelinin qiymətinin 40 dollara qədər artacağını gözləyirik". O bildirib ki, yeni növ koronavirus səbəbindən son günlərdə kəskin ucuzlaşmanın müşahidə olunduğu neftin qiymətindəki geriləmə qarşıdakı müddətdə bərpa olunacaq:"OPEC-ə üzv ölkələrin hasilatı məhdudlaşdırmaqla bağlı qərarının icrası nəticəsində may və iyun aylarında neftin qiymətinin 40 dollara qədər artacağı proqnozlaşdırılır". Arkab ötən həftə qiymətdə baş verən kəskin ucuzlaşmadan sonrakı müddətdə neft bazarının müsbət siqnallar verdiyini qeyd edib. Rusiyanın Ticarət və Sənaye Palatasının Enerji Strategiyası və İnkişaf üzrə Komitəsinin üzvü Rüstəm Tankayev isə hətta bildirir ki, qiymətlər 60 dollara belə çata bilər. O qeyd edir ki, bu ilin payızında neft bazarında sabit müsbət dinamika müşahidə ediləcək. Onun fikrincə, bu ilin




dekabr ayı üçün isə neftin bir barrelinin qiyməti stabil göstərici olan 60 dollar səviyyəsinə çıxacaq. Takayev neft qiymətlərindəki volatilliyi fərqli mal bazarlarında spekulyativ oyunlarla əlaqələndirir.

ABŞ-dan gələn xəbərlər də qiymətlərin yüksəlişinə təsir edir. Belə ki, tələbatın azalması şəraitində xammalın saxlanması üçün kifayət qədər yeri olmayan Amerika şirkətləri öz neftlərini Strateji Neft Ehtiyatına yığmağa başlayıblar. Təkcə bu ay 1,1 milyon barrel neft strateji ehtiyata gətirilib.

**Məlumata görə, bu ayın əvvəlində ABŞ Energetika Nazirliyi bir neçə şirkətlə təxminən 23 milyon barrel neftin saxlanması üçün yer icarəsinə dair müqavilələr bağlayıb. O da məlumdur ki, neftin böyük bir hissəsi mayda və iyunda çatdırılacaq. ABŞ şirkətləri və Energetika Nazirliyi arasında razılaşmalar son həftələrdə neftin qiymətinin düşməsi fonunda əldə edilib. Bu razılıq artıq qiymətləri yüksəldir. Bundan sonra ABŞ prezidenti Donald Tramp neftqaz şirkətlərinə dəstək planının hazırlanmasını tapşırıb. Bu da vəziyyətə təsir edir.**

***Nahid SALAYEV***

# Koronavirusla mübarizə dövründə oruc tutmaq - immunitetin zəifləməsi ilə bağlı mütəxəssislər nə deyir...

**Məlum olduğu kimi, bu gündən müqəddəs Ramazan ayının birinci günü başlayıb. Başqa illərdən fərqli olaraq, bu il Ramazan ayı daha həssas, daha çətin bir dövrə təsadüf edir. Pandemiya dövründə oruc tutub-tutmamaq, eləcə də oruc tutmağın immuniteti zəif olan insanlarda koronavirusa yoluxma risqini yaradıb-yaratmaması insanları dərindən düşündürür.**

Əvvəla deyək ki, oruc tutmaq mənəvi cəhətdən savab, bioloji baxımdan isə sağlamlıq sayılır. Amma bədəni, orqanizmi zəif adamlara oruc tutmaq onlara sağlamlıq deyil, vəziyyətlərinin daha da ağırlaşmasını yaşadır.

Bəzi mütəxəssislər hesab edirlər ki, koronavirusa yoluxmaq risqinin çox olduğu bir dövrdə Ramazan günlərində insanların heç də hamısına oruc tutmaq tövsiyə olunmur. Çünki oruc tutarkən insanın orqanizmi zəifləyir, immuniteti aşağı düşür, bunun nəticəsində də onlar daha çox virus mənşəli xəstəliklərə tutula bilirlər. Bundan başqa, karantin rejiminə görə bütün ailə üzvlərinin bir yerdə olduğu dövrdə də oruc tutmağın risqli olduğunu deyən bəzi mütəxəssislər hesab edirlər ki, onlar arasında ümmuniteti daha zəif olan insan bu virusa yoluxmaq təhlükəsi ilə üzləşə bilər.

Bu gün əksər din xadimlərinin fikrincə, insanlar karantin günlərində də oruc tuta bilərlər, çünki ölkədə yoluxmanın yayılmasının qarşısının alınması üçün bütün lazımi təhlükəsizlik tədbirləri görülüb. Bununla belə, mütəxəssislər hesab edirlər ki, müxtəlif xəstəliyi olanlar, xüsusən də ürək-damar, şəkərli diabet, təzyiq və s. xəstəliklərdən əziyyət çəkən insanların oruc tutması düzgün deyil, immuniteti həddsiz dərəcədə zəif olan bu insanların oruc tutması onların virusa yoluxmasına şərait yarada bilər.

7 saylı poliklinikanın həkim-terapevti Leyla Bayramlı baki-xeber.com-a bildirdi ki, pandemiya dövründə insanların oruc tutmasının bir xeyli çətinliyi var. Həkim-terapevtin sözlərinə görə, karantin rejimi ilə əlaqədar insanların çoxu evdə olduğu üçün oruc tutan insanlar bu prosesi çətin keçirə bilərlər. "Ümumiyyətlə, oruc tutmaq, əslində, çox faydalıdır və bu, insanın orqanizminin tullantılardan, zərərli maddələrdən və s. təmizlənməsinə səbəb olur. Koronavirus dövründə insanların immunitetinin aşağı düşməsi, bədəninin zəifləməsi hallarının baş verməsinə gəlincə, deyim ki, insanların çoxu bu istiqamətdə narahatlıq keçirir. Bu gün insanlar evdədir, daha təhlükəsiz bir şəraitdədir. Deyim ki, evdə qalan sağlam insanların da immunitetində heç bir zəifləmə baş vermir. Çünki onlar sosial izolyasiya şəraitində yaşayırlar. Təhlükəsizlik şəraitində yaşayan insanların immunitetlərinin zəifləməsinə heç bir əsas yoxdur. Bu baxımdan, insanların "oruc tutsam immunitetim aşağı düşər, virusa yoluxaram" kimi narahatlığına əsas yoxdur. Heç bir xəstəliyi olmayan, sağlam insanlar oruc tuta bilərlər və bu, belə insanların yoluxması üçün heç bir risq yaratmır. Sosial izolyasiya şəraitində sağlam insanların oruc tutması immun sistemin zəifləməsinə səbəb olmayacaq. Çünki bütün lazımı tədbirlər görülüb. Bilirsiniz, əgər pandemiya ilə bağlı ölkədə karantin elan edilməsəydi, sosial izolyasiya olmasaydı, oruc tutan insanlar evdən bayıra çıxsaydılar, kütləvi ünsiyyətdə olsaydılar, onda onların virusa yoluxma risqləri çox olardı".

L.Bayramlı hesab edir ki, sosial izolyasiya olmasaydı, oruc tutan insanlar həm bədənlərinin zəifləməsinə, həm də ətrafla ünsiyyətdə olduqlarına görə yoluxmaya məruz qala bilərdilər. "İndi insanlarımız evdədir və heç bir xəstəliyi olmayanlar oruc tuta bilərlər. Çünki onların ətrafla heç bir kontaktı yoxdur və zəifləsələr də belə, buna görə yoluxma risqləri yoxdur" - deyə L.Bayramlı qeyd etdi.

Tanınmış ilahiyyatçı Hacı Təyyar Hüseynli bizimlə söhbətində bildirdi ki, Azərbaycan xalqının ildən-ilə Ramazan ayına, oruc tutmağa meyli, sevgisi artır. İlahiyyatçının sözlərinə görə, Ramazan ayı dövlətimiz və xalqımız tərəfindən böyük coşğu ilə qeyd edilir. Bu il Ramazan ayının pandemiya dövrünə təsadüf etdiyini deyən H.T.Hüseynlinin bildirdiyinə görə, virus dövründə insanların ümmun sistemində müəyyən zəifləmələr baş verir. Qurani-Kərimdə də qeyd edilir ki, oruc tutmaq bir insanın orqanizminə mənfi təsir edərsə, o, orucu dayandıra bilər. Quranda xəstəlik zamanı və səfər müddətində oruc tutmamağın günah sayılmadığını deyən ilahiyyatçının fikrincə, bundan əlavə, həssas orqanizmə malik, oruc üçün tam hazır olmayan insanlar da var ki, onların da pandemiya dövründə oruc tutması virusa tutulma risqləri yarada bilər. "Müxtəlif xəstəlikləri olan insanların təbii ki, orqanizmi zəif olur və onlarda immun sistem zəifləyir, bu halda həmin insanlar oruc tutmamalıdırlar. Bilisiniz, əsasən immuniteti zəif olan insanlar koronavirusa yoluxur, odur ki, orqanizmi zəif olan insanlar oruc tutmasınlar. Bu məsələ son zamanlar daha çox gündəmə gətirilir ki, immuniteti zəif insanlar üçün bu virus daha çox mənfi fəsadlar törədər. Bu da Qurani-Kərimin ayələri, həmçinin, "özünüzü bilə-bilə təhlükəyə atmayın" ayəsi ilə uyğundur. İnsan özünü təhlükədən qorumaq məntiqilə yaranıb".

Koronavirusun özünün insanlığa yönəlmiş böyük zərər, təhlükə olduğunu deyən ilahiyyatçı hesab edir ki, bu xəstəlik insanların immun sistemini hədəfə aldığı üçün, sağlamlığı zəif olan insanlar oruc tutmasınlar. "İnişallah, koronavirus ölkəmizdən çəkilib gedər, təhlükə yox olar, karantin rejimi bitər, sağlamlığı bərpa olunan insanlar immunitetlərini gücləndirib oruc tuta bilərlər. Yaxud insanların mübarək Ramazan ayından sonra da oruclarını davam etmək şansları var. Xüsusi qeyd edim ki, aclıq insanın immun sistemini elə də zəiflətmir. Məsələn, səhər yeməyini 7-də yeyən insan orucluğa görə saat 4-də yeyir, yaxud nahar zamanı yediklərindən imtina edib, bir də axşam vaxtı qidalanır. Burada bir o qədər də immunitet itirəsi, enerji itirəsi təhlükə yoxdur.

**Təbii, orqanizmlər fərqlidir, fərdidir. Hər orqanizmin oruca reaksiyası bir cürdür. Məsələn, mən orucluqla bağlı araşdırmalarımda aydın etdim ki, oruc tutarkən insan orqanizmində detaksikasiya gedir, yəni bu aclıq o aclıqdan deyil. Yeganə orucluqdadır ki, qara ciyər enerjisini orqanizmdə bərpa edir. Hətta Allah Rəsulundan soruşdular ki, xəstə insanlar var, onlarda bir sıra xəstəliklər mövcuddur. Allah Rəsulu konkret cavab verdi ki, oruc tutub sağalsınlar. Bu da var. Bir ilahiyyatçı kimi koronavirus dövründə oruc tutmağın çox az faiz insanın immunitetinin zəifləməsinə səbəb ola biləcəyini vurğulamaq istəyirəm. Yəni bu dövrdə çox az faiz insanın orqanizmi zəifləyə bilər. Bu baxımdan ki, insanlar sosial izolyasiya şəraitindədirlər və kütləvi ünsiyyətdə deyillər. Bu gün insanlar sosial təcrid zamanı özlərini yoluxmadan qoruya bilirlər" - deyə ilahiyyatçı vurğuladı.**

*İradə SARIYEVA*



***Leyla Bayramlı:*** *"Sosial izolyasiya şəraitində sağlam insanların oruc tutması immun sistemin zəifləməsinə səbəb olmayacaq"*

***Hacı Təyyar Hüseynli:*** *"Hər orqanizmin oruca reaksiyası bir cürdür"*

30 aprel 2020
№ 68 (4199)
15
BAKI XƏBƏR

# Atatürkün böyük quruculuq tarixini göstərən serialın çəkilişi niyə dayandırılıb...

**Faiq Ələkbərli:** *"Qurtuluş savaşında Atatürkün gördüyü işləri, apardığı mübarizəni, Cümhuriyyətin ideyalarını bu serialda daha dolğun şəkildə əks etdirmək üçün..."*

**Türkiyənin Azərbaycan, Azərbaycanın isə Türkiyə üçün xüsusi dəyərə malik olduğu məlumdur. Bu baxımdan, Türkiyədə baş verən mədəni, siyasi və sair proseslər Azərbaycanda, Azərbaycanda yaşananlar isə Türkiyədə yaxından maraqla izlənir.**

Son dövrlər Türkiyə kinematoqraflarının tarixi mövzularda ardıcıl olaraq çəkdikləri bir-birindən maraqlı film və seriallara Azərbaycan tamaşaçıları da baxırlar.

Bir neçə gün əvvələ qədər TRT 1 kanalında nümayiş olunan və Azərbaycanda da özünə kütləvi tamaşaçı toplayan Türkiyənin "Kirli kedi" kino şirkətində Funda Çətinin ssenarisi əsasında Yasin Uslunun ekranlaşdırdığı "Ya istiqlal, ya ölüm" televiziya serialında 16 mart 1920-ci ildə İstanbulun işğalı və Meclis-i Mebüsanın dağılması, Mim Mim qrupunun işğal altında olan İstanbuldakı mübarizəsi, Mustafa Kamal Paşanın rəhbərliyi altında Kuva-yi Milliyyət hərəkatı və Ankarada quruluş prosesi ilə 23 aprel 1920-ci ildə yeni bir Məclisin açılması təsvir edilib.

Serialda Mustafa Kamal Atatürkün obrazını İlker Kızmaz canlandırıb.

Serialı izləyən tamaşaçıların böyük əksəriyyətinin fikrincə, "Ya istiqlal, ya ölüm" serialında Mustafa Kamal Atatürkün rəhbərliyilə başlanan qurtuluş savaşının, bu savaşa apan yolun, Türkiyə müstəqilliyini qazanana qədər baş verənlərin, Türkiyənin bağımsızlığının təmin edilməsi üçün verilən mücadilələrin çox böyük bir hissəsi təsvir edilməyib. Tamaşaçılar bu baxımdan hesab edirlər ki, M.K.Atatürkün rəhbərliyilə həyata keçirilən istiqlal savaşı bütün detallarına qədər serialda əks olunmadığı üçün, o yarımçıqdır və onun davamının çəkilməsinə böyük ehtiyac var.

Serialda 1920-ci il avqustun 10-da 14 dövlətin səlahiyyətli nümayəndəsi tərəfindən Sevrdə (Fransa) "Müttəfiq Dövlətlər və Türkiyə arasında imzalnan "Sevr" sülh müqaviləsinin, müasir Türkiyənin siyasi xəritəsinin və sərhədlərinin müəyyən edilməsində əhəmiyyətli rolu olan Lozanna müqaviləsinin, bu müqaviləbağlanana qədər baş verənlərin, Atatürkün bu böyük çətinliklər hesabına nail olduğu məsələlərin böyük bir hissəsi kənarda qalıb.

Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli hesab edir ki, "Ya istiqlal, ya ölüm" serialının çəkilməsi, yayımı müsbət haldır. Amma bu serialda Atatürkün rəhbərliyilə başlanan və Türkiyənin bağımızlığı ilə başa çatan istiqlal savaşının bütün detallarının təsviri vacibdir. F.Ələkbərlinin fikrincə də serialın davamı çəkilməli və qurtuluş savaşı tam olaraq burada təqdim edilməlidir. "Hesab edirəm ki, "Ya istiqlal, ya ölüm" serialında qurtuluş hərəkatını olduğu kimi təsvir etmək, onun əsas detallarını qabartmaq, Atatürkün verdiyi əməyi, Cümhuriyyətin hansı çətinliklər hesabına qurulduğunu tam göstərmək lazım idi. Serialda Mudrost müqaviləsi, Sevr müqaviləsi, bir sözlə, Lozanna müqaviləsinə qədərki məğlubiyyətləri, Lozannada qazanılan qələbəni əks etdirmək lazımdır. Atatürk Türkiyənin əleyhinə olan bütün müqavilələri dəyişdirməyi bacarmışdı. Əlbəttə, bütün bunlar əks olunmalıdır. Qurtuluş savaşında Atatürkün gördüyü işlər, apardığı mübarizəni, Cümhuriyyətin ideyalarını bu serialda daha dolğun şəkildə əks etdirmək üçün "Ya istiqlal, ya ölüm" serialının davamının çəkilməsinə ehtiyac var".

F.Ələkbərli bildirdi ki, Osmanlının ağır vəziyyətdə imzaladığı müqavilələrə sonradan Atatürk böyük əmək sərf edərək, tələblər irəli sürərək yenidən baxılmasına nail odub. "Bu məsələlər də serialda əks olunmalıdır. O dövrdə bir sıra torpaqlar, o cümlədən də Xatay adlanan ərazi Türkiyənin ərazisinə qatılıb. 100 ildən sonra Suriya və İraq ərazisində bir problem yaşanarsa, Türkiyənin yenidən o məsələlərə qayıda bilməsinin Lozannada öz əksini tapması, əlbəttə, müsbət hallardır. Bunların hamısını indiki Türkiyə insanları bilməlidirlər".




**Bundan əlavə, F.Ələkbərli hesab edir ki, M.K.Atatürkün rəhbərliyilə həyata keçirilən qurtuluş savaşına Azərbaycanın, xüsusən də xalqımızın adından Nəriman Nərimanovun göstərdiyi təmənnasız dəstək də filmdə əks olunmalıdır. Bunun daha çox tarixi ədalətin bərpa edilməsinə xidmət etdiyini deyən F.Ələkbərlinin sözlərinə görə, həmin dövrdə Nərimanov Atatürkə böyük dəstək verib: "İdeyaca və məzmunca tamamlanmayan bu serialda Nəriman Nərimanovun qurtuluş savaşına verdiyi böyük və təmənnasız dəstəyin də əks olunmasına ehtiyac var. Nərimanov Azərbaycandan borc pul istəyən Atatürkə məktubunda "Paşam, bizim türk millətində qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşın əlindən tutar. Biz qardaşıq, hər zaman əlinizdən tutacağıq və tutmağa davam edəcəyik" - deyə yazmışdı".**

Tarixçi-alim hesab edir ki, serialın ardının çəkilməsinə böyük ehtiyac var.

***İradə SARIYEVA***

№ 68 (4199) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

30 APREL 2020-ci il

www.baki-xeber.com

# Təyyarələri necə tanıya bilərik?



**Hava limanına yaxın ərazilərdə yaşayırsınızsa və ya sırf enən və qalxan təyyarələri izləmək üçün hava limanına yaxın ərazilərə gedirsinizsə, deməli, sizdə də təyyarə sevgisi var.**

Başımızın üstündən keçən və ya harasa uçmazdan əvvəl gözləmə zalında olarkən pəncərədən gördüyümüz təyyarələrin hansı marka və model olmasını bilmək olduqca maraqlıdır. Təyyarələrin ümumi quruluşu çox oxşar olsa da, onları bir-birindən fərqləndirən detalların sayı da az deyil. "Autograph.az" bildirir ki, bu detallar arasında təyyarənin burun forması, quyruğun yerləşdiyi yer və vəziyyəti, qanadın forması, qapıların sayı, təkərləri və hətta kokpit pəncərələrinin forması var. Bəzi təyyarələrin isə özünəxas siluetu var. Məsələn, "Boeing 747" kimi. "Boeing" modellərinin kokpitinin pəncələrinin yuxarıya doğru V şəkilli olduğunu görürük, lakin "Airbus"da isə bu daha çox kvadrata bənzəyir. Ancaq "Airbus A350" modelində bu adətindən bir qədər uzaqlaşıb. Gördüyünüz təyyarə 4 motorludursa, bu ya "Airbus A340", ya "Airbus A380", ya da "Boeing 747"-dir. "Boeing"i donqar belinə, A380-i isə tamamilə ikimərtəbəli olmasına görə tanıya bilərsiniz. Gecə yaxın məsafədən uçan təyyarənin qanadlarının ucundakı ağ sayrışan işıqları iki dəfə tez-tez yanıb sönürsə "Airbus", bir dəfə yanıb sönürsə, "Boeing"dir. Gəlin bu iki böyük şirkətin bir-birinə rəqib olan modellərini fərqləndirən əlamətlərə detallı şəkildə nəzər yetirək. Dünyadakı dar gövdəli təyyarələrin, demək olar ki, 95%-dən çoxu "Airbus A320" ailəsinə və "Boeing 737" tipli təyyarələrə aiddir. Həvəskarlar üçün bu təyyarələri bir-birindən ayırmaq çətindir. Çünki çox bənzəyirlər. Onları fəqləndirmənin ən rahat yolu burun və quyruq hissələrinə baxmaqdır. 737-lərin ən yenisi olan başıbəlalı MAX seriyasını tanımaq daha asandır - onun qanadlarının ucundakı vinqletlər fərqlidir. A330 ailəsi ilə "Boeing 787" modelləri ölçülər baxımından eynidirlər. Lakin burun formaları onları ayırmaq üçün işimizi asanlaşdırır. "Airbus"un bu modeli rəqibi ilə müqayisədə "dikburun"dur. Onları fərqləndirməyin daha bir asan yolu isə qanadlarıdır. A330-un qanadlarının ucu bir qədər yuxarı qatlanır və məhz buna görə təyyarəni çox uzaqdan da tanımaq mümkündür. Ecazkar 787-nin qanadı isə, demək olar ki, bənzərsizdir. Düz olmayan xüsusi quruluşlu qanadlar ona daha çox gözəllik verir. Həm də "Dreamliner"in mühərriklərinin arxası da naxışlıdır. Yuxarıdakı 2 təyyarə daha çox uzun məsafələr üçün istifadə edilir. Onları fərqləndirən əsas cəhət motor sayıdır - A340 4 ədəd motora sahibdirsə də, 777 iki ədəd olduqca güclü motor hesabına uçur. A340 "kiçik qardaşı" A330-la eyni qanad ucluğuna sahibdir, 777 isə "Dreamliner" qədər olmasa da, müəyyən əyriliyi olan qanadlara malikdir. Əsl təyyarəsevərlər "tripple-seven"-i həm də kəskin quyruğuna görə tanıyırlar. Nəhənglərin mübarizəsi... Lakin onları bir-birindən fərqləndirmək asandır. Baxmayaraq ki, hər ikisi 4 motordan güc alır. Airbus A380 dünyanın tam olaraq ikimərtəbəli yeganə sərnişin təyyarəsidir. "Boeing 747" barədə 1.5 mərtəbəli desək, səhv etmiş olmarıq. 50 ildən bir qədər artıqdır ki, bu dizaynla əfsanələşən "Göylərin kraliçası" ən son versiyası olan 747-8 ilə həm də ən uzun sərnişin təyyarəsidir. Onları fərqləndirən digər detallar qanadlardadır. A380-nin nəhəngliyinə uyğun olmayan balaca vinqletləri, əslində, ona aerodinamika və sərfiyyat baxımından xeyli üstünlük verir. 747-nin köhnə modellərindən fərqli olaraq, 747-8 bir qədər əyri, müasir qanadlara sahibdir.

"Airbus"un ən müasir və demək olar ki, ən güclü modeli A350-ni tanımaq üçün qanadlarına baxmaq kifayətdir. Qanadlarının uclarının 4.4 metrlik hissələri yuxarı doğru qatlanan gənc modelin bu baxımdan analoqu yoxdur. Bir müddət əvvəl ilk uçuşunu uğurla yerinə yetirən, gələcəkdə A350-nin ən böyük rəqibi olacağına şübhə edilməyən "Boeing-in 777x" modelinin qanad quruluşu isə tamamilə fərqlidir. Amerikanlar çox qəribə həll yolu tapıblar - qanadların uclardan 3.5 metrlik hissələri hərəkətlidir. Havada ikən pilot onları düzləşdirir, yerdə ikən körpüyə yaxınlaşma və digər hallarda çox yer tutmaması üçün həmin hissələr qatlana bilir.

## Eynşteynin 1,56 milyon dollara satılan cümləsi...

**Albert Eynşteynin 1922-ci ildə xoşbəxtlik haqqında yazdığı cümlə auksionda 1.56 milyon dollara satılıb. "Milli.Az" xəbər verir ki, Albert Eynşteyn 1922-ci ildə Nobel mükafatına layiq görülən zaman Yaponiyada səfərdə olub və orada leksiya oxuyub.**



Bu ali mükafata layiq olduğu xəbərini də orada eşidib. Eynşteyn yemək üçün qaldığı otağa yemək sifariş verir. Kuryer qaldığı otaqda ona yeməyi gətirəndə Eynşteynin üzərində ona bəxşiş (çayevoy) verməyə pulu olmur. Bunun əvəzində isə Eynşteyn kuryerə "Imperial Hotel Tokyo" otelinin loqotipi olan bloknotun bir vərəqində alman dilində yazdığı bu cümləni ofisianta təqdim edir: "Ciddi və sakit həyat daim narahatlığa və uğura can atmaqdan daha böyük məmnunluq gətirir". Eynşteynin bunu deməkdə niyyəti ondan ibarət olub ki, çoxdan gözlənilən bir məqsədə çatmaq xoşbəxtliyə zəmanət vermir. Eynşteynin bir cümləlik əlyazmasını auksiona həmin kuryerin qardaşı oğlu təqdim edib. Eynşteynin xoşbəxt həyat barəsindəki bir cümləlik resepti 2017-ci ildə Yerusəlimdəki "Vinners" auksionunda satışa çıxarılıb və 1.560.000 dollara satılıb. Eynşteynin həmin dövrdə yazdığı digər bir yazı ("Harada iradə varsa, orada bir çıxış yolu var") 240 min dollara satılıb.





**Qoç** - Gəzintilər, müxtəlif mövzularda söhbətlər, sadəcə, təbiətin seyri üçün gözəl gündür. Yaradıcı potensial artır, yeniliklər, qeyri-standart həllər axtarıb tapmaq asan olur. Sevgililər arasında münaqişələr tez-tez yaranır, amma barışıq mərasimi çox ehtiraslı və çılğın keçir.



**Buğa** - Şəxsi münasibətlərdə problemlər yaranmır. Xoşunuza gələn adamlarla asanlıqla ümumi dil tapırsınız, onlarda özünüzə qarşı maraq oyadırsınız. Bu gün xeyli kompliment eşidəcəksiniz.



**Əkizlər** - Bu gün çox vacib bir şey öyrənəcəksiniz. Yeni məlumatı yaxşı istifadə edə biləcəksiniz, o, düşmənlərinizlə mübarizədə sizin əlinizdə güclü bir silaha çevriləcək. Rəhbərlik və həmkarlarla aranızda fikir ayrılıqları yarana bilər.



**Xərçəng** - Möhtəşəm biznes-ideyaları yaranacaq. Günün ikinci yarısı alış-veriş üçün əladır. Bu gün qənaət etməyə bilərsiniz: pullar lazımi yerə sərf olunur. Maraqlı təkliflər, gözlənilməz diqqət, sürprizlər mümkündür.



**Şir** - Narahat olacaqsınız: işlər istədiyiniz kimi getmir, vacib qərarları məhz iş prosesində verməli olursunuz. Bürcün bir çox nümayəndələri başqalarının günahı ucbatından çətin şəraitə düşür və bu situasiyadan böyük çətinliklə çıxış yolu tapırlar.



**Qız** - Həm işgüzar, həm də şəxsi xarakterli tanışlıqlar üçün münasib gündür. Təsadüfi görüşlər taleyüklü ola bilər. Məsələn, küçədə tanış olub danışdığınız adam sizin ömür-gün yoldaşınıza çevrilə bilər.



**Tərəzi** - Bugünkü uğurlarınızın əksəriyyəti, gözlədiyiniz kimi şəxsi həyatınızla deyil, işlə bağlı olacaq. İri alış-veriş etmək, daşınmaz əmlak almaq, kirayə etmək məsləhət deyil. Hədiyyə almağınız mümkündür.



**Əqrəb** - Dostlarla, yaxud sevgilinizlə görüş üçün əla gündür. Hamının diqqət mərkəzində olmaq xoşunuza gəlir. Bir çox Əqrəblər bu gün maraqlı insanlarla tanış olacaqlar. Enerjiniz çoxdur, səhhətinizdən şikayətiniz olmayacaq.



**Oxatan** - Səyahətə çıxmaq, şəraiti dəyişmək, hətta həyatınızda əməlli-başlı çevriliş etmək həvəsi çox güclüdür. Təəssüf ki, indi bunu edə bilməzsiniz, əvvəlcədən seçdiyiniz yolla gedin.



**Oğlaq** - Günün böyük hissəsini ora-bura getməklə keçirəcəksiniz. Qıçınızı qatlayıb bir yerdə oturmağı çox istəyərdiniz, amma ki, şərait buna imkan vermir. Maraqlı görüşlər mümkündür.



**Dolça** - Siz insanlardan çox şey gözləyirsiniz. Onlar isə köməyinizə gəlmir, verdikləri sözlərə əməl etmirlər. Küskünlüklərə vaxt və əsəb sərf etməyin. Yaxşı olar ki, şəraitin öhdəsindən təklikdə necə gələcəyinizi düşünəsiniz.



**Balıqlar** - Xoşunuza gəlməyən insanın qayğısına qalmalı olacaqsınız. Yeganə mükafatınız isə o olacaq ki, özünüzü borcunuzu yerinə yetirmiş hiss edəcəksiniz. Günün ikinci yarısı rəhbərlik və yaxud nüfuzlu bir şəxslə aranızda münaqişə yarana bilər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## 2020-ci il dəhşətli istilər ili olacaq

**2020-ci ilin tarixdə ən isti il olacağı barədə Dünya Metereologiya Təşkilatı açıqlama verib.**



İngiltərənin "The Guardian" qəzetində yer alan xəbərə görə, 2020-ci il bu günədək qeydə alınan ən isti il ola bilər. NASA-nın Kosmos Araşdırmaları İnstitutunun direktoru Qavin Şmitin araşdırmasında deyilir ki, Yer kürəsinin belə bir durumla üzləşmək ehtimalı 60 faizdir. Milli Okean və Atmosfer Mərkəzindən (NOAA) verilən açıqlamada isə bu nisbətin 75 faiz olduğu bildirilir. Ayrı-ayrı elm adamlarının gözləntisi isə 99 faizdir.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.